www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8-9 mart 2018-ci il Cümə axşamı № 54 (6943) Qiymətı 60 qəpik

**Xəbər**

## Tovuzdakı qətl işinin yeni sensasion detalları bilindi

yazısı səh.14-də

**Gündəm**

### MSK daha üç iddiaçının namizədliyini qeydə aldı




ATƏT-in seçki müşahidəçiləri bu gündən fəaliyyətə başlayır

yazısı səh.5-də

### "Putin NATO-su" generalının ikibaşlı bəyanatı

yazısı səh.9-da

### Elxan Süleymanov 122 qəhrəman ananı təbrik etdi

yazısı səh.2-də

### İlqar Məmmədovla bağlı son üç ay - azad ediləcəkmi...

yazısı səh.10-da

### Dəm qazı faciələrini önləmək üçün qazdan imtina təklifi

yazısı səh.12-də

### "ABŞ səfirliyinə terror hazırlığı Türkiyəyə qarşı böyük provokasiya idi" - ekspert

yazısı səh.3-də

### REAL rəhbərliyindən Milli Şura və Müsavata sərt sözlər

yazısı səh.10-da

### Qidamız nə zaman təhlükəsiz olacaq...

yazısı səh.12-də

### Tovuz və Gədəbəyin istifadəsiz qalan turizm potensialı

yazısı səh.13-də

### "Avropaya miqrant kanalı təşkil etmək istəyən 10-a yaxın dəstə aşkar olunub" - DMX

yazısı səh.14-də

### Sürücülər YDM-lərdə ikiqat aldadılır - həm keyfiyyətdə, həm də ölçüdə

yazısı səh.15-də

# ABŞ ERMƏNİSTAN İQTİDARI İLƏ SAVAŞA BAŞLADI - XƏBƏRDARLIQ VƏ İTTİHAM

**Sərkisyan rejimini korrupsiya və inhisarçılıqda suçlayan Amerika səfiri:** "Ermənistan gələcək siyasi taleyi, hərbi əlaqələri barədə özü, sərbəst qərar verməlidir"; hakim partiyanın rəsmisi isə ABŞ-ı korrupsiyada ittiham elədi - nonsens...




yazısı səh.8-də

## Terrora hazırlaşan 2 nəfər Xaçmazda öldürüldü: Rusiya ilə sərhəddə nə baş verir?

DTX "Xaçmaz camaatı" adı altında yaradılan dini ekstremist qrupun əməllərini araşdırır; **təhlükəsizlik üzrə ekspert:** "Azərbaycan bir sıra terror təşkilatlarının hədəfidir"

yazısı səh.5-də



*Xalq yazıçısı Anar:*

### "Cavanlıqdan bəri heç vaxt özümdən deyən olmamışam"

yazısı səh.6-da



*Fazil Mustafa:*

### "Rəsulzadənin adına yeni universitet yaradılmalıdır"

yazısı səh.4-də



Arif Alışanov

### Məhkəmədə AzTV rəhbərinə qarşı ilginc ittihamlar

yazısı səh.7-də

**8 mart 2017**



## Prezident FHN və DSX əməkdaşlarının maaşlarını artırdı

**Azərbaycan prezidenti İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının artırılması haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılıb.

Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin də aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında sərəncam imzalayıb.

Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılıb.

## Bakıətrafı dəmir yolu xəttinin təmiri və tikintisinə 100 milyon manat ayrıldı

**Prezident İlham Əliyev Bakı şəhərətrafı dəmir yolu xəttinin layihə-smeta sənədlərinin hazırlanması, əsaslı təmiri və tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, Bakı şəhərətrafı dəmir yolu xəttinin layihə-smeta sənədlərinin hazırlanması, tikinti altına düşən torpaqların özgəninkiləşdirilməsi, əsaslı təmiri və tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.3.7-ci yarımbəndində göstərilmiş məbləğin 100 milyon manatı "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə ayrılıb.

Nazirlər Kabinetinə işlərin icrası ilə əlaqədar torpaqların dövlət ehtiyacları üçün alınması məqsədi ilə zəruri tədbirlər görmək, Maliyyə Nazirliyinə isə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb. Bakı şəhərətrafı dəmir yolu xəttinin layihə-smeta sənədlərinin hazırlanması, əsaslı təmiri və tikintisi işlərinin həyata keçirilməsi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə həvalə edilib.

## Azərbaycanda dollarla əməliyyatların həcmi 1,9 dəfə azalıb

**2018-ci ilin yanvar ayında valyuta bazarının həcmi ötən ilin müvafiq dövrünə nisbətən artıb. "APA-Economics" Mərkəzi Bankın statistikasına istinadən xəbər verir ki, 2017-ci il ilə müqayisədə bu ilin ilk ayında xarici valyuta əməliyyatlarının həcmi 1,94 dəfə artıb.**

2017-ci ilin yanvar ayı ilə müqayisədə bu ilin ilk ayında dollarla əməliyyatlarda 1,85 dəfə artım qeydə alınıb. Belə ki, 2017-ci ilin yanvar ayında ABŞ dolları ilə mübadilə əməliyyatlarının həcmi 193 mln. 198 min ABŞ dolları olubsa, 2018-ci ilin yanvarında 358 mln. 154,7 min manat təşkil edib.

Bu ilin yanvar ayında nağd xarici valyuta ilə mübadilə əməliyyatları zamanı 162 mln. 487,3 min ABŞ dolları satılıb ki, bu da 1 il əvvəl ilə müqayisədə 24,65% çoxdur. 2018-ci ilin yanvarında nağd xarici valyuta ilə mübadilə əməliyyatları zamanı 195 mln. 667,4 min ABŞ dolları alınıb. Bu, 2017-ci il ilə müqayisədə 3,11 dəfə çoxdur.

Ötən ilin dekabr ayı ilə müqayisədə bu ilin yanvarında banklar tərəfindən dollar alışı 0,39%, dollar satışı isə 24,65% artıb.

Bu ilin yanvar ayı ilə 2017-ci ili müqayisə edəndə məlum olur ki, hesabat dövründə də avro ilə əməliyyatlarda da 2,79 dəfə artım qeydə alınıb. Belə ki, bu ilin yanvar ayında avro ilə mübadilə əməliyyatlarının həcmi 57 mln. 709,7 min ABŞ dolları olubsa, 2017-ci ilin eyni dövründə 20 mln. 718,1 min manat təşkil edib. 2017-ci ilin dekabr ayı ilə müqayisədə bu ilin yanvarında avro ilə əməliyyatların həcmi isə 39,87% azalıb. Başqa sözlə, ötən ilin dekabrında avro ilə mübadilə əməliyyatlarının həcmi 95 mln. 971,6 min avro olubsa, bu ilin yanvarında bu göstərici 57 mln. 709,7 min avro təşkil edib.

Bu ilin yanvarında nağd xarici valyuta ilə mübadilə əməliyyatları zamanı 45 mln. 609,4 min avro satılıb ki, bu da 1 il əvvəl ilə müqayisədə 3,92 dəfə çoxdur. Hesabat dövründə nağd xarici valyuta ilə mübadilə əməliyyatları zamanı 12 mln. 100,3 min avro alınıb. Bu, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,02 dəfə çoxdur.

Ötən ilin noyabr ayı ilə müqayisədə dekabrda banklar tərəfindən avro alışı 2,39% azalıb, bundan fərqli olaraq avro satışı isə 0,14% artıb.

# "Cənub Qaz Dəhlizi"nin maliyyələşməsi ilə bağlı Almaniya şirkəti və bankları ilə danışıqlara başlanıb" - SOCAR

**"Hazırda Cənub Qaz Dəhlizinin maliyyələşməsinin qalan hissənin təmin olunması ilə bağlı beynəlxalq maliyyə institutları ilə danışıqlar davam edir.**




Bunu APA-nın sorğusuna cavab olaraq SOCAR-ın ictimaiyyətlə əlaqələr üzrə rəsmisi İbrahim Əhmədov deyib.

Onun sözlərinə görə, Cənubi Qaz Dəhlizinin tərkib hissələri olan "Şahdəniz-2" və TANAP layihələrinin maliyyələşdirilməsi ilə bağlı Almaniya Federativ Respublikası ilə danışıqlar aparılıb, 1.5 mlrd. ABŞ dollaradək vəsaitin cəlb edilməsi üçün zəmanətin verilməsi ilə bağlı bu yaxınlarda Nazirliklərarası Komitənin iclasında razılıq əldə edilib.

**O bildirib ki, zəmanətin verilməsində əsas məqsəd Almaniya şirkətlərinin iştirak etdiyi layihələrə maliyyə dəstəyinin verilməsidir:** "Bildiyiniz kimi, 2013-cü ildə 9 Avropa şirkəti, o cümlədən Almaniyanın EON ("Uniper") şirkəti ilə təbii qazın nəqli və satışı ilə əlaqədar uzunmüddətli müqavilələr imzalanıb. Maliyyələşmənin şərtləri ilə bağlı "Cənub Qaz Dəhlizi" QSC ilə Almaniyanın "Hermes" şirkəti və aidiyyəti banklar arasında danışıqlara başlanıb. Yekun şərtlər tam razılıq əldə edildikdən sonra müəyyənləşəcək".

Qeyd edək ki, Cənub Qaz Dəhlizinə daxil olan layihələri paydaş şirkətlər ortaq şəkildə maliyyələşdirir. Azərbaycan tərəfi Cənub Qaz Dəhlizinin bütün seqmentlərində iştirak edir və buna görə Hasilatın Pay Bölgüsü Sazişində dövlətin nəzərdə tutulan mənfəət payından başqa, hasilat və nəqldən əlavə gəlir əldə edəcək. Azərbaycan tərəfinin bütün layihə seqmentləri üzrə ümumi öhdəlikləri isə toplam sərmayə həcminin 1/4-i civarındadır.

**İ. Əhmədov deyib ki, Cənub Qaz Dəhlizi beynəlxalq miqyaslı meqalayihədir:** "Layihədə, Azərbaycan tərəfi ilə yanaşı, digər ölkələrin şirkətləri də iştirak edir. Cənub Qaz Dəhlizi həm Azərbaycan, həm də Avropa üçün iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb etdiyinə görə, Avropa Birliyi ölkələri də layihənin gerçəkləşməsini dəstəkləyirlər. Layihənin maliyyələşdirilməsi ilə bağlı daha əvvəl maraqlı tərəflərlə danışıqlar aparılmış, müvafiq maliyyə vəsaitləri təmin edilmişdir. Azərbaycan tərəfi CQD-nin seqmentləri üzrə öz maliyyə öhdəliklərinin 3/4-dən çox hissəsini artıq yerinə yetirib".



## "İsa Qəmbərin müalicəsi müsbət nəticə verib" - həkim

**"İsa Qəmbərin vəziyyəti yaxşıdır". Bunu APA-nın Türkiyə bürosuna açıqlamasında Ankaradakı Hacettepe Universiteti Xəstəxanasının Nevrologiya bölməsinin professoru Murat Arsava deyib.**

Həkim bildirib ki, İ. Qəmbərin daxili orqanlarının funksiyaları yerli-yerindədir və müalicələr müsbət nəticə verib: "O, yaxın günlərdə xəstəxanadan çıxa bilər".

Qeyd edək ki, İ. Qəmbər fevral ayının sonunda müalicə üçün Türkiyəyə gedib.



## Dünyanın ən varlı insanı Ceff Bezosdur

**"Forbes" jurnalının hər il tərtib etdiyi dünyanın ən varlı insanları siyahısına "Amazon" kompaniyasının rəhbəri Ceff Bezos başçılıq edir.**

AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, reytinq siyahısı martın 6-da nəşrin saytında dərc olunub.

Jurnal Bezosun varidatını 112 milyard dollar həcmində qiymətləndirib. "Amazon" kompaniyasının aksiyalarının qiyməti 12 ay ərzində 59 faiz bahalaşaraq sahibini 39,2 milyard dollar varlandırıb. Bu, "Forbes" jurnalı tərəfindən milyarderlərin kapitalı hesablanmağa başlandığı 1987-ci ildən bəri maksimum yüksəlişdir.

Reytinqin əvvəlki lideri - Amerikanın "Microsoft" kompaniyasının banisi Bill Qeyts ikinci pilləyə enib. Nəşrin məlumatına əsasən, onun varidatı 90 milyard dollar təşkil edib. "Berkshire Hathaway" investisiya fondunun rəhbəri Uorren Baffet isə 84 milyard dollarlıq varidatla reytinqdə 3-cü yerdə qərarlaşıb.

"Forbes" jurnalı ümumilikdə 2208 milyarderi müəyyənləşdirib. Onların əlində cəmlənən kapitalın ümumi həcmi 9,1 trilyon dollar təşkil edir ki, bu da ötən ildə qeydə alınan göstəricidən 18 faiz çoxdur. Həmçinin yeni siyahıya əvvəllər reytinqə düşməyən 259 varlı şəxs daxil olub.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**



## Elxan Süleymanov 122 qəhrəman ananı təbrik etdi

**Şamaxının millət vəkili Elxan Süleymanov hər il olduğu kimi, bu il də Şamaxı rayonundan olan qəhrəman anaları 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib.**

Şamaxı şəhəri, Mədrəsə, Sabir, Şəhriyar qəsəbələrində, Muğanlı, Çuxuryurd, Mirikənd, Qurdtəpə, Qaravəlli, Məlcək, Pirbəhli, Əhmədli, Saqiyan, Cabanı, Bağırlı, Qaleybuğurt, Quşçu, Çarhan, Məlikçobanı, Göylər, I Çaylı və Əngəxaran kəndlərində yaşayan 122 qəhrəman anaya millət vəkili Elxan Süleymanovun adından bayram hədiyyələri və təbrik məktubları təqdim olunub.

❑ Musavat.com

## Ərdoğan, Putin və Ruhaninin görüşünün vaxtı və yeri dəqiqləşdi

**Aprelin 4-də İstanbul şəhərində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın, Rusiya prezidenti Vladimir Putinin və İran prezidenti Həsən Ruhaninin Zirvə görüşü keçiriləcək.**

Virtualaz.org-un məlumatına görə, görüşdə Suriya böhranı ilə yanaşı, regional proseslərin də müzakirə olunacağı gözlənilir.

Xatırladaq ki, Türkiyə prezidenti Zirvə görüşü ilə əlaqədar fevralın 8-də rusiyalı və iranlı həmkarları ilə telefon danışığı aparıb.

## BŞİH Milli Şuranın mitinqlə bağlı müraciətinə müsbət cavab verdi

**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Milli Şuranın martın 10-da mitinq keçirməsi ilə bağlı müraciətini cavablandırıb.**

BŞİH-in İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Zaur Ramazanov bildirib ki, BŞİH aksiyanın martın 10-da keçmiş "Məhsul" stadionunda keçirilməsinə razılıq verib.

Qeyd edək ki, Milli Şura martın 10-da keçmiş "Məhsul" stadionunda mitinq keçirmək üçün BŞİH-ə müraciət edib. (APA)

YENİ MÜSAVAT
N 54 (6943) 8 mart 2018

**“MTN çətesi” və “Rabitə çətesi” adlandırılan dəstələrin həbsdə və istintaq altında olan üzvləri ilə bağlı məhkəmələrdə olduqca şübhəli proses gedir. 2015-ci ilin oktyabrında Milli Təhlükəsizlik Nazirliyində başlanan və sonradan Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə sıçrayan həbslər illərlə fəaliyyət göstərən kriminallaşmış məmurların ifşası kimi başa düşüldü. Hazırda isə hər iki “çete”nin üzvlərinin törətdikləri cinayətlərə, dövlətə vurduqları və milyonlarla, bəzi hallarda isə milyardlarla ölçülən ziyanlara baxmayaraq yüngül cəzalarla yaxalarını kənara çəkmələri müşahidə edilir.**

# MTN və rabitə “çeteləri” üzvlərinin həbsdən çıxmasının “sirri”

## “Bu adamların cəzalarının azaldılmasının çox ağır nəticələri və fəsadları olacaq”

3“**Xural” qəzetinin baş redaktoru Əvəz Zeynallı** deyir ki, hazırda baş verənlər olduqca müəmmalı bir prosesin görünən tərəfidir: “Görünür ki, Eldar Mahmudovun azadlıqda gəzməsinin baş verənlərdə rolu var. O, çöldə qalaraq komandasında olmuş, onunla işləmiş digər nazirliyin işçilərini də cəzadan azad etdirə bilir. MTN-in istintaq idarəsinin rəis müavini Vüsal Ələkbərovun cəzasının 12 ildən 5 ilə endirilməsi nə deməkdir? Bu, Eldar Mahmudovun təsir imkanlarının qalmasından xəbər verir. Onun dəstəsi bir-bir azadlığa çıxacaq, hətta bəzilərini əvvəlki vəzifələrinə də bərpa edə bilərlər”.

**Ə.Zeynallı deyir ki, Azərbaycanda belə presedentlər var:** “2006-2011-ci illərdə



Narkoloji Dispanserin baş həkimi işləmiş Könül Vəliyevanı həkimlərdən rüşvət yığdığına görə həbs etmişdilər. Hətta bir dəfə ”voronok"da (dustaq maşını- E.M.) Bakı İstintaq Təcridxanasına birgə gəlmişdik. O qadını 2 ayın içində Bakı Apelyasiya Məhkəməsi açıb buraxdı. Bir müddət keçəndən sonra həmin qadını Narkoloji Dispanserə baş həkimin müavini təyin etdilər. Yəni “MTN işi”ndə baş verən proseslər də eyni qəbildəndir. Eldar Mahmudovun azadlıqda qalması MTN-dəki mütəşəkkil cinayətkar dəstənin fəaliyyət göstərdiyini ortaya qoyur. Eldar Mahmudov komandasında olanları bu gün bir-bir çəkib həbsdən çıxarır. Həbsdəki generalların, polkovniklərin böyük sirlərə sahib olduqlarını da bilirik. Şantaj məsələləri var. Vüsal Ələkbərovun məhkəmədəki çıxışlarında da şantaj elementləri var. Bu gün bu adamların cəzalarının azaldılmasının sabah çox ağır nəticələri və fəsadları olacaq".

**Ə.Zeynallı deyir ki, hazırda baş verənlər cəmiyyətdə cəzasızlıq sindiromunun kök atmasına səbəb olacaq:** “Yüzlərlə insanın haqqına girən, iş adamlarının milyonlarla manat, dollar vəsaitini mənimsəyən mütəşəkkil cinayətkar dəstə üzvlərinə 3-5, maksimum 12 il cəza verilməsi və həmin cəzaların fantastik dərəcədə azaldılmasının ağır nəticələri olacaq. Hətta ictimai itaətsizliyə gətirib çıxara bilər. Cəza siyasətinin effektinin aradan qaldırılmasına səbəb ola bilər”.

**Ə.Zeynallı deyir ki, Eldar Mahmudovun rəhbərlik etdiyi mütəşəkkil cinayətkar dəstə dövlətin iqtisadi qüdrətinə zərbə vurub:** “Beynəlxalq Bank işi” üzrə zərər milyardlarla ölçülür. İş adamlarına dəyən zərbə haqda mətbuat yazıb. Bu adamlar cinayət edib gedib 5-10 il cəza alırlar. Cinayət yolu ilə əldə etdikləri pullardan verib həbs yerlərində bəy balası kimi yaşayırlar. Sonra Apelyasiya Məhkəməsi cəzaları azaldır. İş Ali Məhkəməyə gedir. Oradan isə açıb buraxırlar. Adamlar oğurladıqları, talan etdikləri milyonları gizlətdikləri xarici ölkələrə çıxıb gedib orada firavan həyatlarını yaşayırlar. Cəza siyasətinin mahiyyəti itir axı! Ciddi bir cinayəti olmayan insanlara 10 ilə cəza verirlər və həmin cəzanı sona qədər çəkməsinə nəzarət olunur. 10 milyard oğurlayana da 10 il iş verirlər. Onlar isə pulunu verir və 2-3 ilə azadlığa çıxır. Bu halda cəza siyasətinin anlamı nə olur?"

**Ə.Zeynallı deyir ki, bu gün baş verənlərin nəticələri çox ağır olacaq:** “Normalda bu adamlar çox ciddi cəzalar almalı, çox ciddi şəkildə cəzalandırılmalı idilər. Cəmiyyətə ”bir daha belə qanunsuzluqlara yol vermək olmaz" anlayışı aşılanmalı idi. Cəzanın mahiyyəti budur. 100 milyonlarla büdcə pulunu oğurlayanları açıb buraxırlar. Təbii ki, bunun çox ağır bədəli olacaq, ictimai itaətsizliyə aparacaq. Sabah insanlar dövlət vəzifələrini ələ keçirib mümkün olan həvəslə, iradə ilə dövlətin büdcəsini talayacaq, vətəndaşların haqqını pozacaqlar. Tutulandan sonra isə bir qədər puldan xərcləyib həbsdən çıxacaq. Vətəndaşların hüquqları pozuldu və dövlətin pulları da qayıtmadı axı?! Cəza sistemi dəyişməlidir, yenidən qurulmalıdır. Əks halda, ortaya çıxacaq çetelərin yanında “MTN çetesi” və “Rabitə çetesi” toya getməli olacaq".

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

# “ABŞ səfirliyinə terror hazırlığı Türkiyəyə qarşı böyük provokasiya idi”

## Türkiyəli təhlükəsizlik mütəxəssisi Çağatay Balcı deyir ki, əgər terror aktı baş versəydi, Ankara Vaşinqton qarşısında çətin vəziyyətdə qalacaqdı



**Xəbər verdiyimiz kimi, martı 5-i və 6-da ABŞ-ın Ankaradakı səfirliyi fəaliyyətini dayandırıb. Yayılan rəsmi məlumatda səfirliyin təhlükəsizlik səbəbi ilə fəaliyyət göstərmədiyi bildirilirdi. Eyni zamanda ABŞ-ın Türkiyədəki (Ankara) səfirliyində viza, pasportun yenilənməsi və notariat xidmətləri verilməyib.**

Bundan başqa, səfirliyin saytında ABŞ vətəndaşlarına Türkiyə ərazisində izdihamlı yerlərdən və ABŞ səfirliyinin binasından uzaq durmaq tövsiyə olunub. **Sitat:** “Populyar istirahət məkanları, ticarət mərkəzləri, bazarlar və idman-əyləncə mərkəzlərinə gedəcəyiniz təqdirdə şəxsi təhlükəsizlik və diqqətinizi artırın. Təhlükəsizliklə bağlı ailənizi və dostlarınızı məlumatlandırın, prosesləri yerli mediadan izləyin və diqqət çəkməməyə çalışın”.

Qeyd edək ki, Ankara valiliyinin yaydığı məlumatda təhlükəsizlik tədbirləri və mühafizənin gücləndirildiyi qeyd olunurdu. Eyni zamanda bazar ertəsi və çərşənbə axşamı Türkiyənin bir neçə şəhərində əməliyyat-axtarış tədbirləri həyata keçirilib, bazar ertəsi axşam Ankarada 20, Samsun şəhərində isə 4 nəfər İŞİD üzvü ABŞ-ın Türkiyədəki səfirliyinə hücum hazırlamaqda şübhəli bilinərək həbs olunub. Samsunda saxlanılan şəxslər İraq vətəndaşları olub, İŞİD üzvləri olduğu bildirilir.

Qeyd edək ki, ekspertlər ABŞ səfirliyinə qarşı terror təhdidinin Ankara və Vaşinqton arasında münasibətlərin soyuq olduğu bir vaxtda edilməsi ilə bağlı bir neçə mümkün versiya qeyd edirdilər. Məlumdur ki, Türkiyədə ABŞ kəşfiyyatının ciddi əlaqələri və məlumat almaq imkanları var. Bunu həm illərə dayanan strateji tərəfdaşlıq əlaqələri, həm də ötən illərdə ABŞ səfirliyinin analoji xəbərdarlıqlarının doğrulması kimi faktlar da sübut edir. Hazırda Türkiyə Suriyada ABŞ-ın müttəfiqi olan kürdlərə qarşı əməliyyat keçirir və bu səbəbdən də iki ölkə hökumətləri arasında ən üst səviyyədə olmasa da, rəsmi dairələr arasında qarşılıqlı ittihamlar davam edir. Belə bir vəziyyətdə səfirliyə sui-qəsd cəhdi, əlbəttə, Türkiyə üçün ciddi başağrısı yarada bilər.

**Ankarada fəaliyyət göstərən təhlükəsizlik üzrə mütəxəssis Çağatay Balcı deyir ki, ABŞ-ın Türkiyədəki səfirliyinin ani bir qərarla bağlanması və səbəb kimi təhlükəsizlik təhdidinin olduğunun göstərilməsinin arxasında bir sıra səbəblər dayanır:** “Bir çox ekspertlər ABŞ səfirliyinin bu xəbərdarlığından sonra yaxın illərdə baş verən hadisələri xatırlayırlar. Son illərdə Ankarada baş verən terror hadisələrindən əvvəl ABŞ səfirliyi terror təhlükəsi xəbərdarlığı etmişdi. Və bu xəbərdarlıqlardan dərhal sonra terror hadisələri baş vermişdi. Bu terror aktlarının demək olar ki, hamısını PKK terror təşkilatına bağlı qruplaşmalar törətmişdi. Lakin hazırkı vəziyyətdə ABŞ-la faktiki müttəfiq münasibətlərinə malik olan PKK-nın belə bir terror törətməsi məntiqsiz olardı. Çünki belə bir terror aktı olarsa, bu, Türkiyənin Afrin əməliyyatını legitimləşdirmiş olar. Eyni zamanda hazırkı Türkiyə cəmiyyətində ”ABŞ və müttəfiqlərinə qarşı milli mübarizə" kampaniyasına dəstək olar. Yəni bu hadisə nə PKK-nın, nə də ABŞ-ın maraqlarına cavab vermir".

**Ç.Balcının fikrincə, bu vəziyyət Türkiyəyə qarşı yönəlmiş provokasiya ola bilər:** “Burada ABŞ-ın planladığı və terror təhlükəsi ilə bağlı xəbərdarlıqda sətirarası vurğu Türkiyəni hədəfə alır. Yəni əgər belə bir terror baş verərsə, o zaman Türkiyə günahlandırılacaq və Ankaraya təzyiq ediləcək. Əgər Türkiyədə ABŞ qurumlarına, səfirlik, konsulluq və ya ayrı-ayrı şəxslərə qarşı hücum baş verərsə, ABŞ bunun üzərindən Türkiyəyə təzyiq etməyə çalışacaq. Lakin Türkiyə kəşfiyyat və təhlükəsizlik orqanları bu təhlükənin qarşısını alıb. Son olaraq ABŞ-ın Adanadakı konsulluğuna hücum hazırlayan 10 İŞİD üzvü ələ keçirilib".

❑ **Kənan RÖVŞƏNOĞLU, “Yeni Müsavat”**

**8 Mart Beynəlxalq Qadınlar Günü ilə bağlı "Yeni Müsavat" Media Qrupunda kiçik mərasim təşkil olunub. Tədbirdə "Yeni Müsavat" qəzeti, müsavat.com, minval.az və minval.info saytlarının əməkdaşları iştirak ediblər.**

# "Kişilər bir ömür qadınların borcundan çıxa bilmir"

## "Yeni Müsavat"da 8 mart təbriki











"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov ölkədən kənarda olan baş redaktor Rauf Arifoğlunun təbrik və arzularını xanımlara çatdırıb.

**"Yeni Müsavat" qəzetinin baş redaktor müavini Azər Ayxan kişilərin qadınların haqqını heç vaxt qaytara bilməyəcəyini deyib:** "Biz sizlərin haqqınızı heç zaman qaytara bilmərik. Həm iş yoldaşı olaraq, həm dost, həmkar, həm də ana olaraq. Bizim ilk vətənimiz anamızın bətnidir, anamızın özüdür. Ona görə də vətəni ana ilə müqayisə edirlər. Vətən haqqı kimi ana haqqı da qaytarılması heç vaxt mümkün olmayan bir dəyərdir. Qadınların bayramı ildə bir dəfə 8 Martda keçirilir. Amma ilin bütün günləri sizin olsun, sizinlə olsun. Biz sizsiz heç bir şey edə bilmərik. "Yeni Müsavat"ın ən cəsarətli yazılarını qadınlarımız kişi yazarlarımız qədər ürəklə qələmə alırlar. İqtisadiyyat kimi mürəkkəb bir sahə iki xanım əməkdaşın çiyinlərindədir".

**A.Ayxan bildirib ki, qadın əməyi maddi olaraq nə qədər yüksək qiymətləndirilsə belə, onun dəyərini ödəmir:** "Görünür, Allah-təala belə yaradıb ki, biz kişilər ömür boyu sizə borclu qalırıq. Bir daha Sizi, sizin timsalınızda bütün dünya qadınlarını təbrik edirəm".

**Musavat.com saytının veb redaktoru Xalid Kazımlı hər bir kişinin həyatında 4 yaxın qadının olduğunu deyib:** "Anadır, bacıdır, övladdır və sevgili-xanımdır. Bu dörd qadın kişilərin həyatında əsas yer tutur. İş yoldaşları isə ana ilə bacının aralığında bir yerdədir. Sizin hamınız bizim bacımız, həmkarımızdır. Təbrik edirəm hər birinizi, bütün qadınları".

**Minval.az saytının əməkdaşı Yanina Mədətova qadınlar adından arzulara və təbriklərə görə təşəkkürlərini çatdırıb:** "Nə yaxşı ki, siz kişilər varsınız. Bizə dəyər verib, günümüzü qeyd etdiyinizə görə təşəkkür edirik".

Daha sonra xanım əməkdaşlara hədiyyə və gül təqdim olunub.

**❑ DÜNYA,**
**"Yenì Müsavat"**

# Rektorun Rəsulzadə haqqında sözləri etiraz doğurdu

## Fazil Mustafa: "Rəsulzadənin adına yeni universitet yaradılmalıdır"

## Dilavər Əzimli: "Rəsulzadənin heykəli BDU-nun həyətində yox, ən uca yerdə ucaldılmalıdır"

**Azərbaycanın ən qədim universiteti olan Bakı Dövlət Universitetinə böyük dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin adının verilməsi məsələsi dəfələrlə ictimaiyyətdə müzakirə olunub. Hazırda universitetin əsas giriş qapısının yaxınlığında Rəsulzadənin büstü qoyulacağı haqqında bildiriş lövhəsi də var. Həmin daş lövhənin üzərində kiril əlifbası ilə "Burada Azərbaycan xalqının böyük mütəfəkkiri, Azərbaycan Demokratik Respublikasının banisi Məhəmməd Əmin Rəsulzadənin büstü qoyulacaq", yazılsa da, illərdir bu reallaşmır.**





Bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının, gələn il isə Bakı Dövlət Universitetinin fəaliyyətə başlamasının 100 illiyi qeyd olunacaq. Bu baxımdan universitetə Məhəmməd Əmin Rəsulzadənin adının verilməsi məsələsi yenidən aktuallaşıb.

Tarixə kiçik nəzər salaraq qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cu il 1 sentyabr tarixli iclasında Bakıda universitetin təsis edilməsi qərarı qəbul edildi və onun nizamnaməsi təsdiq olundu. Universitet ilk tədris ilini 2 fakültə ilə - tarix-filologiya və tibb fakültələri, 1094 tələbə ilə başladı. Məhəmməd Əmin Rəsulzadə isə ilk illərdə burada Şərq xalqları ədəbiyyatından dərs deyib. Yəni universitetin yaranmasında onun da böyük xidmətləri olub. Çünki yeni qurulan, maliyyə vəsaiti olmayan gənc bir dövlət üçün universitet açmaq və onun maddi təminatını ödəmək o qədər də asan deyildi.

Bu xidmətlərinin müqabilində Azərbaycan müstəqilliyini bərpa edəndən sonra Bakı Dövlət Universiteti bir müddət elə Rəsulzadənin adını daşıdı. Lakin sonradan universitetin adı dəyişdirildi.

**Universitetə yenidən Rəsulzadənin adının verilməsi ilə bağlı azedu.az saytı BDU rektoru Abel Məhərrəmovdan müsahibə götürüb. Müsahibədə A. Məhərrəmov belə fikirlər söyləyib:** "Azərbaycan Xalq Cümhuriyyətinin yubileyi ərəfəsindəyik. Bakı Dövlət Universiteti AXC-nin oğul övladıdır, ancaq bu ali məktəbin yaranmasında xüsusi olaraq bir şəxsiyyəti fərqləndirmək, bütün uğurları bir nəfərin adı ilə bağlamaq düzgün olmazdı. Universitetə onların hamısının adını vermək olmaz, aralarından birini seçmək isə çətindir".

**Rektor BDU-ya onun yaradıcısının - Məhəmməd Əmin Rəsilzadənin adının qaytarılmasının əleyhinə olmasını daha sonra belə əsaslandırmağa çalışıb:** "İkinci məsələ isə odur ki, qabaqcıl dünya təcrübəsində universitetlərə ad verilməsi məsələsi yoxdur, bizdə də buna uyğun qərar qəbul edilib".

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan deputat Fazil Mustafa bildirib ki, yeni və müasir universitet açılmalı, Rəsulzadənin adı həmin universitetə verilməlidir:** "Məhəmməd Əmin Rəsulzadənin adının universitetə verilməsini doğru saymıram. Onun adına gələcəkdə yeni, dünya səviyyəsinə çıxa biləcək və dünyada təhsil reputasiyasına görə tanınacaq universitet açmaq olar. Bu universiteti xaricdə də yaratmaq mümkündür. Hər şeyin bir mənəvi tərəfi var. İllərdir ki, BDU-nun qarşısında daş qoyulub ki, burada Rəsulzadənin büstü olacaq. Bu aldatma kimə lazımdır? Daşı götürün oradan, vəssalam də. İnsanların hissləri ilə nə üçün oynayırsız? Rəsulzadənin adına yeni universitet yaradılmalı və bu da nümunəvi təhsil ocağı olmalıdır. Yəni Rəsulzadənin intellektual və böyük dövlət adamı kimliyinə uyğun gəlməlidir. Yəqin ki, bu universitet bir ideya olaraq gerçəkləşə bilər. İndiki şəraitdə isə BDU-ya Rəsulzadənin adını verilməsi heç nəyi dəyişmir. Rəsulzadənin adı Azərbaycan Cümhuriyyətinin özüdür. Cümhuriyyətimizin mövcudluğu Rəsulzadənin də adının əbədiləşməsi deməkdir. Ona görə də bunun üzərində çox da narahatçılıq keçirməyə dəyməz. Kimsə Rəsulzadəyə dəyər vermirsə, bunu özü bilər. Ancaq o cür lövhənin ora vurulması doğru deyil. Rəsulzadə böyük dəyərimizdir. Bu gün Azərbaycan dövləti cumhuriyyətimizin 100 illiyini rəsmi bayram kimi qeyd edirsə, bu faktorları da nəzərə almalıdır. Qeyd etdiyim kimi, Rəsulzadənin təhsil fəlsəfəsinə, Azərbaycan cəmiyyətinin maarifçilik ideyasına daha uyğun gələn universitet yaradılmasına daha çox üstünlük verərdim".

**Tarixçi Dilavər Əzimli də bildirib ki, universitetin adı dəyişdirilməli deyildi:** "Bakı Dövlət Universiteti yaranan zaman adsız idi. Belə bir təcrübə vardı ki, universitetlər elə adsız yaranardı. Ancaq sonrada bu ənənə pozuldu və Amerikanın özündə belə Corc Vaşinqton Universiteti yaradıldı. BDU-nun adı mən orada oxuduğum vaxt dəyişdirilib, Rəsulzadə adına Bakı Dövlət Universiteti oldu. Bu, 1991-ci ilə təsadüf edib. Sonradan isə bu adın götürülməsi doğru deyildi. Çünki artıq ad verilmişdi. İkincisi də orada Rəsulzadənin büstü qoyulmalı idi, ancaq bu da olmadı. Həmin daş da universitet ərazisinə Əbülfəz Elçibəyi vaxtında qoyulub. O vaxtdan bu günə qədər daş orada qalıb, büst isə düzəldilmir. Azərbaycan fəxr etməlidir ki, dünyaya Rəsulzadə kimi lider verib. Bu adama hər yerdə və hər kəsdə sayğı olmalıdır. Əslində Rəsulzadə cümhuriyyəti idarə edən ürək idi. Digərlərini da o, başına yığımışdı. Bəlkə də Rəsulzadə olmasaydı, onun ətrafında olanlar bir araya gəlməzdilər. Ümumilikdə bu şəxslərin hamısı nəsilli-köklü adamlar idi və birləşib dövlət qurdular. Onların hər biri bizə əzizdir. Lakin danmaq olmaz ki, bu adamların başında Rəsulzadə dayanırdı. Bu, xalq, insan mövqeyidir. Sən öz xalqının nümayəndəsini sevməlisən. Çünki dünya siyasətçiləri də onun adını hörmətlə anırlar. Bütün Azərbaycan onunla fəxr etməlidir. Bu, bir az da mənəviyyat məsələsidir. Abel Məhərrəmov nə edirsə, özü bilər. Ümumən mən də tərəfdarıyam ki, universitetə adam adı verilməsin. Ancaq artıq bu ənənə qoyulub. Rəsulzadənin heykəli BDU-nun həyətində yox, ən uca yerdə ucaldılmalıdır. Onun ətrafında da digərlərinin heykəli qoyulmalı, böyük park yaradılmalıdır. Rəsulzadənin adı ən böyük yerə, ən böyük küçəyə verilməlidir. Universitet nədir ki? Böyük elmi mərkəz yaradıb, Rəsulzadənin adını ora vermək lazımdır. Rəsulzadə olmayan yerdən dövlət yaratdı. Bunu anlamaq lazımdır".

**❑ Əlì RAÌS,**
**"Yenì Müsavat"**




# MSK daha üç iddiaçının namizədliyini qeydə aldı

## ATƏT-in seçki müşahidəçiləri bu gündən fəaliyyətə başlayır

**Aprelin 11-nə təyin edilmiş prezident seçkisi ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) "Seçki-2018" Müstəqil Media Mərkəzi martın 7-dən fəaliyyətə başlayıb.**

Martın 7-də "Seçki-2018" Müstəqil Media Mərkəzinin açılış mərasimi keçirilib. Tədbirdə MSK sədri Məzahir Pənahov, MSK üzvləri və MSK Katibliyinin təmsilçiləri iştirak ediblər. "Seçki-2018" Müstəqil Media Mərkəzində yaradılmış şəraitlə tanış olan MSK sədri yerli və beynəlxalq KİV-in asanlıqla məlumat əldə etmələri, habelə digər seçki prosesi iştirakçılarına daha keyfiyyətli və səmərəli xidmət göstərmək üçün öz tövsiyələrini də verib.

Prezident seçkiləri dövründə 24 saat ərzində fəaliyyət göstərəcək "Seçki-2018" Müstəqil Media Mərkəzi namizədlər və onların səlahiyyətli nümayəndələrinin mətbuat konfransları keçirmək və bəyanatlar verməsi üçün də açıqdır. Prezidentliyə namizədliyi qeydə alınmış namizədlər öz seçkiqabağı təşviqat materiallarını mərkəzdə yerləşdirə bilərlər.

"Seçki-2018" Müstəqil Media Mərkəzinin www.secki-2018.az internet səhifəsi də artıq Azərbaycan, rus və ingilis dillərində mütəmadi fəaliyyət göstərir. Bu səhifədə seçki prosesi ilə bağlı səlahiyyətli şəxslərin və ekspertlərin rəyləri, açıqlama və bəyanatlar yerləşdirilir, həmçinin seçkilərlə bağlı foto və videogörüntülər təqdim edilir.

Məzahir Pənahov həmçinin bildirib ki, prezident seçkilərində müşahidə aparmaq üçün dünya ölkələrinə və beynəlxalq təşkilatlara dəvət göndərilib. O qeyd edib ki, həm Milli Məclis, həm Xarici İşlər Nazirliyi, həm də Mərkəzi Seçki Komissiyası prezident seçkilərində müşahidə aparmaq üçün kifayət qədər təşkilat və ölkə parlamentlərinə dəvət göndərib.

M.Pənahov ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun missiyasının müşahidəçi kimi martın 8-dən fəaliyyətə başlayacağını məlumat verib.

**MSK sədri həmçinin qeyd edib ki, namizədlər seçkiqabağı təşviqat kampaniyası başlamamış təbliğat aparmamalıdırlar. Təbliğat kampaniyası başlamamış təşviqat aparmaq qanun pozuntusudur:** "Ola bilər ki, bunu özləri etməsinlər, başqaları-onları gözdən salmaq istəyən şəxslər edir. Bütün tərəflər diqqətli olmalıdır. Azərbaycanda insanlar məsələlərə düzgün qiymət vermək bacarığındadırlar. Hansısa namizəd bu cür əməllərə əl atırsa, öz seçicilərini itirir".

Seçkiqabağı təşviqat martın 19-da başlayır.

Bu arada İctimai Televiziya və Radio Yayımları Şirkəti (İTV) prezident seçkilərində ödənişli seçkiqabağı təşviqat aparılması üçün qiymətləri açıqlayıb. İctimai Televiziyada prezidentliyə qeydə alınan namizədlərin və ya onların səlahiyyətli nümayəndələrinin çıxışının saniyəsi minimum 20 manat, maksimum qiyməti isə 50 manat müəyyən edilib. Bu isə o deməkdir ki, 1 dəqiqə çıxış üçün minimum 1200, maksimum 3000 manat tələb olunur.

İctimai radioda isə çıxışın bir saniyəsi üçün minimum 7, maksimum 25 manat ödəmək lazımdır.

Ödənişli təşviqata qoşulan namizədlər günün müxtəlif saatlarında İTV və İctimai radioda çıxış edə bilərlər.

İctimai Televiziya və Radio Yayımları Şirkəti prezidentliyə qeydə alınan namizədlərə həm də ödənişsiz efir vaxtı ayıracaq. Həmin müddət namizədlər arasında bərabər bölünəcək.

Martın 7-də isə MSK-nın qeydə aldığı namizədlərin sayı 4-ə (Buna qədər YAP-ın namizədi İlham Əliyev qeydə alınmışdı) çatıb. MSK-nın iclasında prezidentliyə namizədliyi öz təşəbbüsü ilə irəli sürülən Zahid Orucun, prezidentliyə namizədliyi Azərbaycan Sosial Demokrat Partiyası tərəfindən irəli sürülən Araz Əlizadənin, prezidentliyə namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülən Qüdrət Həsənquliyevin namizədliyinin qeydə alınması məsələsinə baxılıb. MSK katibi Arifə Muxtarova iclasda məlumat verib ki, Zahid Orucun, Araz Əlizadənin və Qüdrət Həsənquliyevin müdafiəsi üçün toplanan imzalar MSK-ya təqdim edilib, Mərkəzi Seçki Komissiyası həmin imzaları yoxlayıb və hər birinin 40 mindən artıq seçici imzası etibarlı sayılıb, onların prezidentliyə namizədliyinin qeydə alınması üçün əsaslar var.

Onların namizədliyinin qeydə alınması məsələsi səsverməyə çıxarılaraq qəbul edilib.

Hər üç namizəd Milli Məclisin deputatıdır.

Qeyd edək ki, MSK 15 nəfərin namizədliyinin irəli sürülməsini təsdiqləyib. İddiaçıların bəziləri artıq imzatoplama kampaniyasını yekunlaşdırıblar. Bəziləri isə hələ davam edirlər. Dünən daha bir iddiaçı-VİP-in namizədi Əli Əliyevin imzatoplama kampaniyası başa çatdırılıb. VİP mətbuat xidmətindən verilən xəbərə görə, tələb olunan imzalar toplanıb. Dairələr üzrə əhatəliliyi araşdırılır, imza vərəqələri qərərgaha toplanaraq yoxlanışdan keçirilir. Vərəqələrin düzgünlüyü yoxlanandan sonra MSK-ya təqdim olunacaq. Prosesin həftə sonuna qədər tamamlanacağı qeyd olunur.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Terrora hazırlaşan 2 nəfər Xaçmazda öldürüldü: Rusiya ilə sərhəddə nə baş verir?

## DTX "Xaçmaz camaatı" adı altında yaradılan dini ekstremist qrupun əməllərini araşdırır; təhlükəsizlik üzrə ekspert: "Azərbaycan bir sıra terror təşkilatlarının hədəfidir"

**"Xaçmaz camaatı" adı altında yaradılan dini ekstremist qrup terror-təxribat əməllərinə hazırlaşırmış". Bu haqda Dövlət Təhlükəsizliyi Xidməti (DTX) məlumat yayıb.**




DTX-nin ictimai əlaqələr şöbəsindən bildirilib ki, Xaçmazda fəaliyyət göstərən "dini qrupun paralel terror-təxribat əməllərinə hazırlıq hərəkətləri müəyyən edilib". Martın 6-da qrupun üzvlərindən olduğu deyilən Sabir Məmmədov və Tərlan Səlimova "tabe olmaq əmri verilsə də, onlar qanuni tələblərə tabe olmayaraq odlu silahdan atəş açıb silahlı müqavimət göstəriblər" deyə, DTX məlumat verib. Açıqlamada deyilir ki, "əməliyyat qrupu tərəfindən cavab tədbiri olaraq xidməti silahdan istifadə edilməklə Sabir Məmmədov və Tərlan Səlimov öldürülüb".

DTX "Xaçmaz camaatı" qrupunun "beynəlxalq terror təşkilatının tabeçiliyində olduğunu" açıqlayıb. Hadisə yerindən kustar üsulla hazırlanmış partlayıcı qurğu və partlayıcı maddələr, müxtəlif təyinatlı silah-sursat aşkar edilərək götürülüb. DTX əlavə edir ki, hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam edir. "Xaçmaz camaatı" qrupunun hansı beynəlxalq terror təşkilatının tabeçiliyində olması, bunu təsdiqləyən sübutlar və qrupun terror planı barədə detallar ictimaiyyətə hələ açıqlanmayıb.

Fakt üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28, 214.2.1, 214.2.3 (terrorçuluğa hazırlıq), 218.2 (cinayət birlikdə iştirak etmə) maddələri ilə cinayət işi başlanıb.

**"Yeni Müsavat"a danışan təhlükəsizlik üzrə ekspert Sülhəddin Əkbər bildirib ki, ümumilikdə Azərbaycanının daxil olduğu Böyük Orta Şərqdə terror riski yüksəlib: "Bunun səbəbi Orta Şərqdə gedən terrorla mübarizədir. Azərbaycan müsəlman ölkəsidir, müharibə vəziyyətindədir, sərhədlərinə tam nəzarət edə bilmir. Terrorla mübarizədə ölkəmizin elə də böyük təcrübəsi yoxdur. Azərbaycan bir sıra terror təşkilatlarının hədəfidir. Bu baxımdan terror-təhdid səviyyəsi də yüksəkdir və son zamanlarda, 2018-ci ilin əvvəlindən başlayaraq Suriya və İraqda gedən mübarizənin regional konfliktə dönmə ehtimalı var. Bu, Suriya böhranının yeni mərhələyə keçidi və bütün regionun böyük savaşa sürüklənməsidir".**

**S.Əkbər deyir ki, bu ilin yanvarında Vaşinqtonda keçirilən gizli toplantıda qəbul edilən qərarlar ölkəmizin olduğu region üçün yaxşı heç nə vəd etmir:** "Görüşdə ABŞ, Böyük Britaniya, Fransa, Səudiyyə Ərəbistanı, İordaniyanın nümayəndələri iştirak ediblər. Almaniya, Türkiyə və Misirin də gizli toplantıya dəvətləri nəzərdə tutulub. Almaniya göndərilən dəvətə cavab verməyib. Türkiyə kürd məsələsinə görə son anda dəvət edilməyib. Misirə də dəvət göndərilməyib. Həmin görüşdə müzakirə edilən məsələlərdən ən başlıcası Suriyanın parçalanması olub. İranın Suriyada qarşısının alınması, Rusiyanın isə Suriyada təsirinin azaldılması, küncə sıxışdırılması hədəfi qoyulub. Türkiyənin nəzarətə alınması da hədəflərdən biridir. Suriya müharibəsinin regional müharibəyə çevrilməsi Azərbaycanın qonşuları olan İran və Türkiyənin böyük savaşa cəlb edilməsi deməkdir. Bu perspektiv ölkəmizə yaxşı heç nə vəd etmir. Ən azı qaçqın axını ölkəmizin durumunu çətinləşdirəcək".

**S.Əkbər deyir ki, ABŞ və müttəfiqlərinin regionda kiçikmiqyaslı nüvə başlıqlarından istifadəsi də Vaşinqtondakı gizli görüş zamanı ciddi müzakirə olunub:** "Regionda Rusiya və İranının başını əzmək üçün kiçikmiqyaslı nüvə bombası partladılması niyyətləri var. Bu, olduqca təhlükəli niyyətdir və vəziyyətin olduqca ciddi olmasından xəbər verir. Suriya böhranı genişlənib regional müharibəyə çevriləcəksə, İran məsələsi hərbi kontekstdə gündəmə gələcəksə, Rusiyanın Azərbaycana hərbi müdaxiləsini gündəmə gətirə bilər. Ermənistan-Azərbaycan müharibəsi də qızışa bilər".

**S.Əkbər deyir ki, böyük güclər hər hansı bir ölkədə sabitliyin pozulmasına nail olmaq istəyirlərsə, ilkin olaraq həmin ölkələrdə terror təşkilatları peyda olur:** "Suriyada da eyni ssenari oldu. ABŞ-ın bu gün Suriyada olmasının legitim hüquqi əsası dolayısı ilə terror təşkilatları ilə mübarizəyə dayanır. Bu gün ABŞ-ın Suriyada olması üçün BMT Təhlükəsizlik Şurasının qərarı yoxdur. Suriya dövlətinin də dəvəti yoxdur. Yeganə dolayı legitimlik verən terrorla mübarizədir. Hazırda Suriyada qalmaq üçün 2 kiçik terror qrupunu orada saxlayıblar. Əgər həmin terror qrupları da məhv edilsə, ABŞ-ın Suriyada qalmaq üçün hər hansı bir əsası olmur. Oradan isə çıxmaq istəmirlər. Ona görə ki, İrana və Türkiyəyə yönəlik niyyəti var".

Yada salaq ki, illər öncə İŞİD bəyan edib ki, Rusiyanın Şimali Qafqazda fəaliyyət göstərən silahlılar onlara sadiqlik andı içib. Qruplaşma həmin regiondan olan silahlıları öz sıralarında alqışlayıb. Şimali Qafqazda İslam dövlətinin nüfuzunun genişlənməsi "Əl-Qaidə" qruplaşması ilə müttəfiq olan Qafqaz əmirliyi qruplaşmasının hesabına başa gəlib. "Qafqaz əmirliyi" illərlə Rusiyaya qarşı silahlı mübarizə aparıb və indiki şəraitdə müstəqil qurum kimi fəaliyyət göstərməkdə çətinlik çəkə bilər. "Əmirlik" 2007-ci ildə çeçen silahlılarının lideri Doku Umarov tərəfindən rəsmən elan olunub. "Əmirlik" Rusiyanın əsasən müsəlman əhalisinin cəmləşdiyi Şimali Qafqaz regionu üzərində öz suverenliyini elan edib, lakin əslində heç vaxt bu əraziyə nəzarət etməyib. "Əmirlik" "Əl-Qaidə" tərəfindən elan edilən qlobal cihadla həmrəylik göstərsə də, öz fəaliyyətini əsasən Rusiyanın Qafqazdakı hakimiyyətinə qarşı silahlı mübarizəyə yönləndirib. 2014-cü ilin ortalarında "İslam dövlətinin" lideri Əbu Bəkr əl-Bağdadi özünü bütün dünya müsəlmanlarının rəhbəri elan edib. Son illər ərzində Qafqazdan olan yüzlərlə, bəlkə də minlərlə silahlı Suriya və İraqda vuruşub və onların bir çoxu əl-Bağdadiyə sadiqlik andı içib. Onların arasında İslam dövlətinin ən görkəmli səhra komandirlərindən gürcüstanlı etnik çeçen olan Ömər əl-Şişani var.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 54(6943) 8 mart 2018

# "Mən birinci Anaram"

## Xalq yazıçısı Anar: "Cavanlıqdan bəri heç vaxt özümdən deyən olmamışam"

**Bu görüş əslində xalq yazıçısı Anarın öz təşəbbüsü ilə baş tutdu. Düzdür, biz də arzulayırdıq ki, böyük yazıçımızın 80 illiyi ərəfəsində onunla rəhbərlik etdiyi Yazıçılar Birliyində görüşüb ondan geniş müsahibə alaq. Ancaq xaricdə olması səbəbindən bu, baş tutmamışdı və telefonla danışa bilmişdik.**

*Qəzetimizə verdiyi ötən müsahibədən sonra bu sətirlərin müəllifinə özü telefon açdı. Təşəkkür etməklə yanaşı, uyğun zamanda görüşmək təklifini verdi və təbii ki, böyük məmnunluqla qəbul etdim. Görüşdük, söhbətimizin şirin yerində təklif etdim ki, Anar müəllim, bəlkə tarix üçün, həm də yubileyqabağı sizdən həm də bir "növbədənkənar" müsahibə götürüm. Etiraz etmədi...*



***- Anar müəllim, əvvəlcə sizi 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, sağlam ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Həmçinin verdiyiniz dəyərə, üstəlik, dəvətinizə görə təşəkkür edirəm. Bilmək istərdim, yazıçı Anar 80 yaşının astanasında daxilən özünü hansı yaşda hiss edir?***

- Özümü... Nə bilim?.. Bilirsiniz ki, bu arada xəstələndim, ağır əməliyyat olundum. Amma indi özümü normal hiss edirəm, səhhət baxımından əziyyət çəkmirəm. Əsas da odur ki, işləyə bilirəm və işləyirəm. Mənim üçün ən ağır gün o gün olar ki, işləyə bilməyim, yaza bilməyim. Hər gün işləyirəm. Elə bir gün olmur ki, nə isə yazmayım. Ona görə də bu məni xilas edir. Məni həm ağır fikirlərdən, həm haqsız hücumlardan və başqa şeylərdən ancaq işləmək və yazmaq xilas edir.

***- Məsələn, bu gün nə üzərində işləmisiniz?***

- Bu gün... İndi mənim kitabım çıxır. Artıq rusca çıxıb: "LİK Azerbaydjana". Onun azərbaycancasını hazırlayıram. Düzdür, çox məqalələr azərbaycanca yazılmışdı, amma bəziləri də rusca idi, indi onları tərcümə edirəm. Həmçinin bir neçə təzə məqalə yazıram ora. "Ədəbiyyat" qəzetinin son sayında onlardan ikisi çıxıb, biri Mahmud Kaşqari haqqında, digəri "Qudat Qublik".

İndi də bir məqalə üzərində işləyirəm: 3 "Leyli və Məcnun" haqqında, Nəvainin, Nizaminin və Füzulinin. Bu da o kitab üçündür.

***- Martın 14-nə az qalır. Yubileylə bağlı təkliflər gəlibmi? Harda, necə keçiriləcək?***

- Yubileylə bağlı, düzü, heç bir təklif gəlməyib. Hörmətli nazirimiz soruşdu ki, bəs yubileyinizdir, nə istəyirsiniz? Dedim 3 cildlik "LİK Azerbaydjana"nın çapına dəstək verilsə, yaxşı olar. Bir də sizə keçən dəfə demişdim, ssenari yazmışam, onu çəksinlər. Vəssalam. Mənim ayrı heç bir təmənnam yoxdur.

***- Anar müəllim, yubiley ərəfəsində daha çox nələr barədə düşünürsünüz? Uşaqlıq illərinə xəyalən səyahət etməyə imkanınız olur, ya o illərdən nə isə yazırsınız, yoxsa digər işlər buna da vaxt qoymur?***

- Yox, niyə? Düşüncələr həmişə mənimlədir (gülür). Dediyim kimi, mən indi daha çox o kitabla məşğulam. Amma 20-il ərzində yazdığım bir əsər var ki, mənim ən uzun müddətdə yazdığım əsər odur. Yəni 20 il deyəndə, mən onu 20 il ərzində işləməmişəm. Sadəcə, 20 il bundan qabaq başlamışam, ara vermişəm, sonra yenə qayıtmışam. İndi deməyə utanıram, çünki hər dəfə deyirəm ki, bu yay onu qurtaracağam (gülür). Amma bu yay onu dəqiq yekunlaşdıracağam - "Keçən keçdi, olan oldu". Bu, mənim uşaqlığım, bizim ailəmiz, sonra keçdiyim bütün ömür yolu haqqında memuar, düşüncələr və anılar romanıdır. Əslində roman bitib. Amma mən onu başlayanda əllə yazmağa başlamışdım, indi kompüterə köçürdürəm, o da vaxt aparır. Sonra bəzi şeyləri dəqiqləşdirmək, əlavələr, ixtisarlar etmək lazım gəlir. Bu "LİK"i qurtarandan sonra o işlə məşğul olacağam.



**"Məni həm ağır fikirlərdən, həm haqsız hücumlardan və başqa şeylərdən ancaq işləmək və yazmaq xilas edir"**

***- Bildiyimizə görə, ilk əsəriniz "Keçən ilin son gecəsi"dir...***

- Bəli, 1960-cı ilin dekabrında mənim iki hekayəm "Azərbaycan" jurnalında çıxmışdı. "Keçən ilin son gecəsi" və "Bayram həsrətində". Bunlar mənim ilk mətbu yazılarımdır.

***- Belə gec çap olunmağınızın səbəbi nə idi?***

- 60-cı ildə mənim 22 yaşım var idi.

***- Amma siz iki böyük qələm adamının övladı olaraq daha erkən çap oluna bilərdiniz. Ondan qabaq yəni yazmamışdınız?***

- Hekayələr yazmışdım. Evdə oxuyurdum, atam deyirdi yox, bunları hələ çap eləmə, lazım deyil. Yazılarımı həm atama göstərirdim, həm də gözəl yazıçımız Ənvər Məmmədxanlıya. Ənvər müəllim atamın həm əmisi oğlu, həm də xalası oğludur. O da çapını məsləhət görmürdü. Amma "Keçən ilin son gecəsi"ni yazandan sonra dedilər hə, bunu çap eləmək olar. Mən də gətirdim "Azərbaycan" jurnalına, onda redaktor rəhmətlik Əbülhəsən idi, mənim ilk hekayələrimi o çap elədi.

***- Daim yaradıcı mühitdə olmuşunuz, ata-ana yazır, çevrədə yazıçı, şairlər... Yəqin ki, həm Rəsul Rzanın, həm də Nigar Rəfibəylinin ilk oxucusu siz olmuşunuz. Daha çox hansını oxuyurdunuz? Onlar necə, sizi oxuyurdularmı?***

- İkisi də mənə oxuyurdular. Uşaqlıqda yox, əlbəttə. Amma yeniyetməlik yaşıma çatandan sonra atam təzə yazılarını həmişə ailədə oxuyurdu, həm mənə, həm anama, bacılarım böyüdükcə, bacılarıma da. Anam da elə... Mən də təbii ki, yazdıqlarımı ona oxuyurdum. Mən həmişə ədəbi söhbətlər eşitmişəm, ədəbi atmosferdə yaşamışam.

***- Davamlı ədəbi mühit sizi heç yormurdu ki?***

- Yox, maraqlı idi. Qonaqlarımız da olurdu. Məsələn, Nazim Hikmət hər dəfə Bakıya gələndə bizə də gəlirdi. Onun söhbətlərinə maraqla qulaq asırdım.

***- İlk dəfə nə vaxt gördünüz onu?***

- Mən onda universitetdə oxuyurdum. 50-ci illərin axırı idi. İlk dəfə Bakıya gələndə həm bizim evə gəlmişdi, həm də mən tələbəydim, onunla universitetdə görüşdüm. Sonra atam onu Cəfər Cabbarlının qəbrinin üstünə apardı, orada da şəklimiz var idi. Daha sonra Cəfər Cabbarlının evinə gəldik, indi muzeydir. Cəfər Cabbarlının həyat yoldaşı Sona xanım onda hələ sağ idi. Kimsə dedi ki, Cəfər Cabbarlının "Aydın" pyesi Nazim Hikmətin "Qəribə adam"ına oxşayır. Nazim Hikmət qayıtdı ki, yox, onun əsəri mənim əsərimə oxşaya bilməz, əksinə olar. Düzdür, heç "Aydın"ı oxumamışdı, amma təvazökarlıqla belə sözlər dedi.

***- Sizin evdə təkcə Nazim Hikmət olmayıb. Bəlkə də belə demək olar ki, sizin evdə daha kimlər olmayıb? O məşhur simalardan kimləri xatırlayırsınız, Anar müəllim?***

- Bizim evə çox adam gəlib. Nazim Hikmətdən başqa, türklərdən - onlar da bizimkilərdir - Fazil Hüsnü Dağlarca, Məlik Cövdət, Yaşar Kamal, Kamal Tahir bizim evdə olub. Azərbaycandan isə Səməd Vurğun, Mirzə İbrahimov, Süleyman Rüstəm, Qara Qarayev, Niyazi, Tofiq Quliyev, Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov, Tahir Salahov, bunlar hamısı bizim evin qonaqları olublar.

***- Siz də o söhbətlərin iştirakçısı olurdunuz?***

- Bəli, mən də iştirak edirdim. Bəziləri ilə, mənim yaşıma yaxın olanlarla sonra dost olduq. Toğrul Nərimanbəyovla, Tahir Salahovla mən çox yaxın dost olmuşam. Bəstəkar Emin Sabitoğlu uşaqlıq dostum idi, rəhmətlik. Atamın da, anamın da, mənim də sözlərimə mahnı yazıb.

***- Səməd Vurğunu necə xatırlayırsınız?***

- Səməd Vurğun həmişə mənimlə zarafat edirdi. Bu zarafat heç bilmirəm nədən başlamışdı. Bir dəfə də biz bulvarda anamla gəzəndə rast gəldi. Qayıtdı ki, sən mənə de görüm Azərbaycanda birinci şair kimdir? Dedim atam. Bəs ikinci şair? Dedim anam. Mən də o vaxt bilmirdim şair kimdir. Bizə kim gəldi, "şair" deyirdim. Səməd Vurğun "Sonra?" soruşdu. Dedim Sabit Rəhman, Ənvər Məmmədxanlı. Belə zarafatlar edirdi...

Mənim bacım anadan olmuşdu, adını Fidan qoymuşdular. Çox adam da bilmirdi, Fidan nə deməkdir. Bilirsən də mənası "pöhrə"dir. Mən də böyüklərdən eşitmişdim, odur ki, kim soruşurdu, fidanın mənasını deyirdim. Bir dəfə də anamla Mərdəkana getmişdik. Orda da Səməd Vurğunla rastlaşdıq. Yeri də yadımdadır, bağda, skamyada oturmuşduq, Səməd Vurğun dedi, Nigar, eşitdim qızın olub, gözün aydın, adını nə qoymusan? Anam dedi ki, Fidan. Mən də qayıtdım ki, bilirsiniz Fidan nə deməkdir? İndi Səməd Vurğuna fidan sözünün mənasını izah edirəm (gülür).

***- Biz məktəbdə oxuyanda danışardıq ki, yazıçı Anarın adının açması belədir: "Anası Nigar, atası Rəsul". Burada həqiqət payı varmı?***

- Yox, onun dəxli yoxdur. Kimsə onu sonralar uydurub, heç ata-anamın xəbəri olmayıb. Anmaq felindəndir. Anmaq, xatırlamaq, yada salmaq. Anar, yada salar-filan.

***- Adınızı kim qoyub?***

- Atam qoyub. Mən birinci Anaram. İkinci Anar məndən təqribən 20 il sonra olub. Mən çap olunmağa başlayanda Anar adını qoymağa başladılar. Azərbaycanda məndən 20 yaş cavan Anar yoxdur. Bizim ailə Azərbaycana 5 yeni ad verib. Anardan başqa.. .Fidan mənim ikinci bacımdır, ondan sonra Fidan Qasımova, bizim böyük müğənni deyir ki, atasının xoşu gəlib, onun da adını Fidan qoyub. Sonra mənim "Dədə Qorqud" filmimdə Tural və Günel adları da bizdən gəlib. Bir də bacımın qızı Aysel. O da Azərbaycanda birinci Ayseldir. İndi Aysel, Günel, Tural çoxdur, ilkləri bizimkilər olub.

**"Nəyəm, oyam da, pis, yaxşı...."**

***- Anar müəllim, 80 yaşınızda özünüzü Dədə Qorqud yaşında hiss edirsinizmi?***

- Dədə Qorqudun 300 yaşı olub (gülür).

***- Bəs Dədə Qorqud statusunda necə?***

- Yox, mən özümü öz statusumda hiss edirəm. Mən heç bir vaxt iddialı olmamışam. Hətta heç bir vaxt "mənim əsərlərim" sözünü işlətmirəm, həmişə "yazılarım" deyirəm, çünki ətim tökülür belə söhbətlər eşidəndə. "Bu, dünya şöhrətli yazıçıdır", "bu, dahidir", "bu, klassikdir", filan... Adam gərək bir az...

***- Təvazökar olsun?***

- Məmməd Rahim rəhmətliyin yaxşı bir sözü var idi. Deyirdi ki, mənə deyirlər təvazökar ol! Təvazökar olaram e, amma bunu kim biləcək? (gülürük)

***- Bəlkə indi ona görə bu qənaətdəsiniz ki, haqqınızda kifayət qədər deyilib, yazılıb, şöhrətin ən yüksək zirvəsinə qalxmağı bacarmısınız, ölkənin ali mükafatlarını almısınız və hesab edirsiniz ki, daha təvazökar olmaq lazımdır. Səhv etmirəm ki?***

- Mən lap cavanlıqdan beləyəm. "Mən təvazökaram" demək yenə özünü tərifləməkdir. Ona görə də demirəm ki, mən təvazökaram. Amma mən cavanlıqdan bəri heç bir vaxt özümdən deyən olmamışam. Heç tanınmayanda da deməmişəm ki, mən yazıçıyam, filan ailədənəm. Heç vaxt bunu qabartmamışam. Nəyəm, oyam da, pis, yaxşı.

***- Anar müəllim, heç bu barədə düşünmüsünüzmü ki, Rəsul Rzanın övladı olmasaydınız, indiki statusda olardınız mı?***

*(davamı növbəti sayımızda)*

**Elşad PAŞASOY,**
**FOTO: "Yeni Müsavat"**

**Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Arif Alışanovu öldürməyə cəhddə və külli miqdarda pulunu ələ keçirməkdə ittiham edilənlərin məhkəməsi baş tutub. Təqsirləndirilənlər Şücayət Əkbərov, Qoçəli Cəbiyev, Zöhrab Şirinov və Aqşin Hüseynovdur.**

# Məhkəmədə AzTV rəhbərinə qarşı ilginc ittihamlar

## Arif Alışanova sui-qəsd cəhdində təqsirləndirilən şəxs şok ifadələr verdi; "O, Eldar Mahmudovun bir nömrəli adamlarından idi"; "Onunla gələn qızı elə rayonda aradan götürdülər"...



Musavat.com xəbər verir ki, işə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə baxılır.

Məhkəmədə Arif Alışanovun və qızının nümayəndəsi iştirak edib.

Prosesdə təqsirləndirilən Şücayət Əkbərov vəsatət verib ki, Arif Alışanov da məhkəmədə iştirak etsin, gəlmədiyi təqdirdə isə proses təxirə salınsın.

Ş.Əkbərovun vəkili qeyd edib ki, həyatına sui-qəsd edildiyi, külli miqdarda dələduzluğa məruz qaldığı iddia edilən Arif Alışanovun məhkəmədə iştirakı vacibdir. Vəkil bildirib ki, ədalətli məhkəmə araşdırması A.Alışanovun iştirakı ilə mümkün ola bilər.

Məhkəmə vəsatəti təmin etməyib. Hakim bildirib ki, prosesin davamında zərurət yaranarsa, Arif Alışanov məhkəməyə çağırılacaq.

Hakim bildirib ki, zərərçəkmiş A.Alışanov məhkəməyə mülki iddia təqdim edib. Alışanov iddiasını təqsirləndirilən şəxslərdən Şücayət Əkbərova qarşı irəli sürüb və 4,5 milyon manatının ödənilməsini tələb edib.

Təqsirləndirilən Ş.Əkbərov mülki iddia ilə razılaşmayıb: "Mən pul qazananda Alışanov pul görməmişdi".

Məhkəmə mülki iddianı icraata qəbul edib.

Ş.Əkbərov səhhəti ilə bağlı ekspertiza keçirilməsini və müalicə müəssisəsinə köçürülməsini istəyib.

Məhkəmə prosesinin davamında dövlət ittihamçısı ittiham aktını elan edib. Təqsirləndirilən şəxslər özlərini təqsirli bilməyiblər.

Məhkəmə təqsirləndirilənlərdən Şücayət Əkbərovdan ifadə verməyi tələb edib. O deyib: "2007-ci ildən Arif Alşıanovu tanıyıram. Bir neçə dəfə Şamaxıya gəlib. Oradan torpaq ərazisi alıb. Mən də makler kimi torpaq sahibləri ilə görüşüb, qiyməti danışırdım. Amma alqı-satqıda özləri şəxsən iştirak edirdi. 2-3 il bu alqı-satqılar davam elədi. Mən təkcə Alışanovla yox, bir çox şəxslərlə işləmişəm. 2011-ci ildə Alışanov xanımı Mehribanı Şamaxıya göndərdi, torpaqları kürəkəninin adından çıxarmağımızı istədi. Mən sonra bildim ki, qızı boşanmırmış deyə torpaqları kürəkəninin adından çıxarırmış. Alışanov dəfələrlə rayona gəlib, satıcılarla görüşmürdü. Həmişə deyirdi, heç kim bilməsin ki, o, torpaq alır. Sonradan torpaqlar ayrı-ayrı şəxslərin adına keçirilib".

Ş.Əkbərov istintaqın qərəzli aparıldığını və istintaq zamanı təyinatla gələn vəkilin də onu aldatdığını deyib.

Arif Alışanovun Şamaxının Karlar kəndindən də torpaq aldığını, həmin kənddə sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin də torpaq sahəsinin olduğunu deyən Ş.Əkbərov bu ərazilərin bələdiyyənin balansında olduğunu deyib.

**Ş.Əkbərov qeyd edib ki, həmin kənddə bələdiyyə sədri Sədaqət adlı şəxs olub:** "Həmin zaman torpaq sahələrini hissə-hissə alaraq özəlləşdirmək istəyirdik. Amma alınmırdı. Sonra istədik ki, Sədaqəti icra başçısı qoyaq ki, işlər onun əlində olsun. O da alınmadı".

**Təqsirləndirilən şəxs Arif Alışanovun sabiq MTN naziri Eldar Mahmudovla yaxın əlaqələrinin olduğunu söyləyib:** "Alışanov Eldar Mahmudovun bir nömrəli adamlarından idi. Amma MTN işində kimlərinsə vasitəsilə kənarda qaldı. Bunu da bilirik. Aydın məsələdir. O zaman çox işi Mahmudovun dəstəyi ilə edirdi".

Ş.Əkbərov ona qarşı irəli sürülən ittihamların əsassız olduğunu söyləyib.

Məhkəmədə gərginlik yaranıb. Buna səbəb Şücayət Ələkbərovun qızlarının Arif Alışanovun nümayəndəsinə etiraz etməsi olub. Hakim həmin şəxsləri məhkəmə zalından çıxarıb.

**Prosesdə sensasion sayıla biləcək iddia səsləndirilib. Şücayət Əkbərov deyib ki, Arif Alışanov rayona gələndə yanında gənc qızlar da olurmuş:** "Bir dəfə gələn qızı elə rayonda aradan götürdülər. Başını "əkdilər". Bunu bilirəm deyə məni aradan götürmək istəyirlər. Sonra da başqa qızla gəldi".

Xatırladaq ki, ittiham aktına görə, Ş.Əkbərov 2013-cü ilin iyulundan 2017-ci ilin yanvarınadək olan dövr ərzində Şamaxı rayonunda və Bakı şəhərində külli miqdarda özgə əmlakını və əmlaka olan hüquqları aldatma və etibardan sui-istifadə yolu ilə ələ keçirmək məqsədilə dələduzluq edərək yaratdığı mütəşəkkil dəstə tərkibində qanunsuz silah, döyüş sursatı əldə edib saxlayaraq, daşıyıb-gəzdirib, başqa cinayəti gizlətmək məqsədilə, tamah niyyətli və sifarişlə iki və daha çox şəxsi təkrarən qəsdən öldürməyə cəhd edib. O, həmçinin A.Alışanovun 4,5 milyon manatlıq əmlakını da ələ keçirməkdə təqsirli bilinir.

Rəsmi məlumata görə, Ş.Əkbərov həmin pul vəsaitləri və əmlakları geri qaytarmaq məqsədilə yaxın münasibətlərdə olduğu Musabi Namazov, Qoçəli Cəbiyev, Zöhrab Şirinov və Aqşin Hüseynovla dələduzluq cinayət əməlini gizlətmək üçün A.Alışanovu öldürmək istəyiblər. Ş.Əkbərov bunun müqabilində dəstə üzvləri Q.Cəbiyevlə M.Namazova 600 min manat pul vəd edib.

İttihama görə, M.Namazovun dəstə üzvləri tərəfindən törədiləcək qəsdən adam öldürmə və qanunsuz silah əldə etmə, daşıma, gəzdirməklə saxlama əməlləri barədə polis orqanlarına vaxtında məlumat verib.

Polis əməkdaşları Ş.Əkbərovu, Q.Cəbiyevi, M.Namazovu, A.Hüseynovu və Z.Şirinovu saxlayıb. Məhkəmənin qərarı ilə Ş.Əkbərov, Q.Cəbiyev, A.Hüseynov və Z.Şirinovun barəsində həbs-qətimkan tədbiri seçilib. M.Namazovun barəsində isə polisin nəzarətinə verilmə qətimkan tədbiri ilə bağlı qərar çıxarılıb.

Ş.Əkbərov Cinayət Məcəlləsinin 29,120.2.1-ci (qəsdən adam öldürməyə cəhd, bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürməyə cəhd), 29,120.2.5-ci (tamah məqsədi ilə və ya sifarişlə, habelə zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədi ilə adam öldürməyə cəhd), 29,120.2.6-cı (başqa cinayəti gizlətmə və ya onun törədilməsini yüngülləşdirmə məqsədi ilə, habelə zorlama və ya seksual xarakterli başqa zorakı hərəkətlərlə əlaqədar adam öldürməyə cəhd), 29,120.2.7-ci (iki və ya daha çox şəxsi öldürməyə cəhd), 29,120.2.10-cu (təkrar adam öldürməyə cəhd), 178.3.2-ci (dələduzluq, külli miqdarda törədildikdə), 228.3-cü (qanunsuz olaraq odlu silah qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham olunur.

Digər şəxslərin barəsində isə 29,120.2.1, 29,120.2.5, 29,120.2.6, 29,120.2.7, 29,120.2.10, 228.3-cü maddələrlə ittiham irəli sürülüb.

**İlkin MURADOV, Musavat.com**

# Xəyanətin cəzası



**Xalid KAZIMLI**

**Dünyanın bütün ölkələrində əfv olunmayan bir cinayət növü var - vətənə xəyanət. Bu iki kəlmə bizim ölkədə, eləcə də postsovet məkanında adamlarda ikrah və ironiya doğurur.**

Bunun səbəbi odur ki, sovet dövründə milyonlarla adamı bu ittihamla damğalayaraq məhv ediblər.

Yüzlərlə vətənpərvər, millətsevər ziyalımız absurd vətənə (SSRİ-yə) xəyanət etməkdə ittiham edilərək ya güllələnib, ya da Sibirə sürgün olunub.

Üstündən 20-30 il keçəndən sonra sübut olunub ki, "vətənə xəyanət"də təqsirləndirilən ziyalılarımız əslində heç SSRİ-yə də xəyanət etməyiblərmiş.

Ona görə də bu ittiham qəddar repressiyanın ən yayğın ittihamı halına gəlmişdi, hər kəsə yapışdırıla bilərdi. Bir-birini istəməyən şəxslər rəqiblərini birdəfəlik məhv etmək üçün məhz "vətən xaini" yarlığından yararlanırdılar.

Vətənə xəyanət isə başqa şeydir. Məsələn, sovet dövründə ölkədəki həqiqətləri yazan, sovet quruluşunun əyər-əskiklərini göstərən, totalitarizmin puçluğundan bəhs edən yazıçı və alim dissidentləri "vətən xaini" adlandırır, ən yaxşı halda vətəndaşlıqdan məhrum edib, mühacirətə göndərirdilər.

Sonradan onlardan birinin - yazıçı Aleksandr Soljenitsının əslində 20-ci əsrin ən böyük rus vətənpərvəri olduğu prezidentlər səviyyəsində etiraf olundu. Adam həmişə öz xalqının təəssübünü çəkmiş, bəzən ifrata, az qala faşizmə də varmışdı. Sovet dövləti isə onu həbs düşərgələrindəki həqiqətləri yazdığı, faş etdiyi üçün vətən xaini elan etmişdi.

Yeni bir ölkəni idarə edənləri tənqid, hətta ifşa etmək vətənə xəyanət deyil. Ancaq hökumət adamlarını tərifləyə-tərifləyə, babat dövlət vəzifəsi tuta-tuta hərbi (ümumiyyətlə, istənilən sirri) düşmənə ötürmək (satmaq) xainlikdir.

Xatırlayırsınızsa, ötən il bir qrup hərbi vəzifəli şəxsin düşmənə mühüm sirlər ötürdüyü, silsilə informatorluq etdiyi, ifşa olunduqları barədə xəbərlər yayılmışdı. Hamı da onların xainlik etdiklərinə əmin olmuşdu, sadəcə, cəzalarının qanunlar çərçivəsində kəsilməsindən yana fikir bildirənlər vardı.

Bəzən isə mövcud qanunlar xainlərin cəzalandırılması üçün yetərli olmur. Son illərdə ən çox Rusiya bu kimi naqolay durumlarda qalır və vətən xainlərinə əli çatmır. Rusiyanın hərbi sirlərini xarici kəşfiyyat orqanlarına satan şəxslər ifşa olunmazdan bir az əvvəl, yaxınlaşan təhlükədən duyuq düşərək qaçır, ya işlədikləri dövlətə, ya da üçüncü bir ölkəyə sığınırlar.

Köhnə sovet kəşfiyyatçısı, qəddar və amansız KQB məktəbinin müdavimi prezident Putinin rəhbərlik etdiyi dövlətin aidiyyatı orqanları dövlətə xəyanət edərək xarici dövlətə sığınmış şəxslərin nə qədər tələb etsə də, onların çağırışlarına məhəl qoyan, ekstradisiyası tələb olunan casusları geri verən olmur. Belə olanda çoxsaylı təhlükəsizlik və kəşfiyyat strukturlarına malik olan rus dövlətinin gizli agentləri işə başlayır və casusları bir-bir ovlayırlar.

İllər öncə Londonda zəhərlənərək öldürülən Aeksey Litvinenko bu avantüranın qurbanı oldu. O, rus dövlətinin sirlərini İngiltərəyə satmışdı və zəhərləndikdə şübhələr tezliklə Kremlə yönəldi. Sonradan tamamilə sübut olundu ki, Litvinenkonu Moskvadan gələn şəxslər zəhərləyib. Adları da məlum olan həmin şəxslər hazırda Rusiya dövlətinin tam himayəsi altındadırlar - qisas əməliyyatına görə öz mükafatlarını alıblar.

Bu günlərdə Londonda daha bir casus, Rusiya dövlətinin prizmasından yanaşsaq, vətən xaini Sergey Skripal zəhərlənib.

Şübhələr yenə Moskvaya yönəlib. Belə məsələlərdə təsadüf olmur, məşhur ifadə ilə desək, işıq dirəyinin başında tısbağa varsa, onu ora bir qoyan var, özü çıxa bilməz.

Zatən, Rusiyanın belə qisas əməliyyatları həyata keçirməsi çoxdan bəllidir, hətta detektiv ədəbiyyatında da əks olunub. Məsələn, azərbaycanlı yazıçı Çingiz Abdullayevin əsərlərində "xainlər"in Avropa şəhərlərində, eləcə də ABŞ-da bir-bir necə "dənlənilməsi"ndən təfərrüatı ilə bəhs edir. Hiss olunur ki, yazıçının bu kimi məxfi məlumatlara çıxışı var. Bəlkə də sovet kəşfiyyatı məktəbinin zəhmini, nüfuzunu bərpa etmək üçün bu kimi ədəbi materiallardan istifadənin məqsədəuyğun olduğu düşünülür.

Bəzən bizim ölkəmizdə də elə fikirlər səslənir ki, "xaricə sığınmış xainlər"lə sərt dildə danışmaq lazımdır. İndilikdə onların fiziki məhvindən yox, "tutulub gətirilməsi"ndən söhbət gedir. Amma təhlükəli məşğələ, avantürist fikirdir. Hər bir xainin cəzası beynəlxalq qanunların çərçivəsində verilməlidir. Beynəlxalq qalmaqallara səbəb olacaq addımlardan çəkinmək lazımdır.



# Çini öyrənirik

Zamin HACI
zaminhaci@gmail.com

"Elə gözəllər var bunun içində,
Ələ düşməz hərgiz Çinü-Maçində.
Söyləgən, oynağan, dürüst biçimdə
Bəzəyi, libası, hayıf ki, yoxdur!"

*(Molla Pənah Vaqif)*

**Norveçin də bizim kimi neft gəlirləri var, onlar bu pulu Norveç Pensiya Fondu adlanan qurumda toplayırlar. Bu, mənə baxımından eynilə bizim Dövlət Neft Fondu kimi şeydir. Adları fərqli görünsə də. Hətta Norveç Pensiya Fondu elə 2006-cı iləcən "Norveç Neft Fondu" adını daşıyırmış. Bax, norveçlilər həmin fondda düz 1 trilyon dollar pul yığıblar. Keçən ilin sentyabrına olan məlumatdır. Yəqin həmin vaxtdan bəri neçə milyard artım da vardır, çünki NPF hər ili 50-60 milyardlıq qazancla başa vurur.**

Bəs bizim DNF-də neçə manat toplanıbdır, bundan indiki və gələcək nəsillərimizə nə qədər qoz qabığı çatacaqdır? Biz bunu bilmirik. Biz, ümumiyyətlə, neft-qaz, yeraltı-yerüstü sərvət kimi maddələrə qarışmırıq. Çünki yetimin əlində qoğal əcaib görünür. Yetim məsləhətdir qıvrılıb yatsın.

Norveçin o fondu haqda əhvalat niyə yadıma düşdü, onu yazım. Təzəlikcə Çin Xalq Respublikası haqda oxuyurdum. Sözgəlişi, fikir versəniz harada diktatura, totalitar rejim varsa, onun adında bir tragikomik "xalq, demokratik, respublika" kimi sözlər olur. Biri elə Çin. Camaatın çoxu dilənçi günündədir, ölkəni isə Kommunist Partiyası fırladır, di gəl, adı "Xalq" dövlətidir. Yaxud Konqo Demokratik Respublikası. Afrikanın göbəyində yerləşən bu dövlətdə son yüz ildə hər bir prezident özündən əvvəlkini yalan olmasın, bişirib yeməklə tanınıbdır. Seçki yox, kasıbçılıq üzrə dünya çempionudurlar, kim kimi tutsa zorlayır, genosid, vətəndaş müharibəsi dayanmır. Ancaq adı Demokratik Respublikadır! Tema açılmışkən, bu KDR-i 1971-1997-ci illərdə, 30 ilə yaxın fırladan diktator Mobutu özünə belə ad qayırmışdı: "Mobutu Sese Seko Kuku Ngbendu wa za Banga". Yerli bantu dilindən tərcüməsi belə idi: "Arxasınca alovlu izlər qoyaraq qələbədən qələbəyə gedən, dözümünə və əyilməzliyinə görə həmişə qalib gələn qüdrətli döyüşçü". 1997-ci ildə təzə adamyeyən çıxıb bu "qüdrətli"ni hakimiyyətdən qovdu, xaricə qaçıb orda öldü.

Uzun sözün qısası, heç axtarsan alman, danimarkalı, norveçli utanıb öz dövlətinə "demokratik" adı yapışdırmır, bunlar isə yazırlar. Hələ bir zırrama rejim var, onun adında ikisi də yazılıbdır: "Şimali Koreya Xalq Demokratik Respublikası". Bəh-bəh. Demosun xalq mənasını verdiyini nəzərə alsaq, bu ölkəni "xalqın kvadratı respublikası" adlandırmaq olar. Necə deyərlər, kasıb itinə Gümüş adı qoyar. Bunun bir dənəsini də Qəzzafi müəllim Liviyada qayırmışdı: Böyük Liviya Sosialist Ərəb Xalq Cəmahiriyyəsi. Ancaq orada da bu uzundraz adın köməyi olmadı, Müəmmər müəllimi kanalizasiya lyukunda tutub məhv elədilər, cəmahiriyyə isə vətəndaş savaşının qanlı "camaşırxanasına" verilib, hələ də təmizləyib adam içinə çıxara bilmirlər. Əsl "hırriyyə"dir. Burada başqa ata sözümüzün yeridir: "Görməmişin oğlu oldu, dartdı ... qopartdı". Üç nöqtənin yerində istəsəniz xalq cəmahiriyyəsi oxumaq olar.

Çindən bəhs edirdim. Sən demə, orada bizim başa düşdüyümüz mənada, sivil Qərb standartına uyğun pensiya sistemi yoxdur. Camaatın çoxu (bunlar isə yüz milyonlar deməkdir) yaşlaşıb işdən çıxanda sadəcə acından ölməyə məhkumdur. Əgər beş-on qəpik qara gün pulu toplamayıbsa, əgər övladı himayəyə götürmürsə. Orda övlad işi də çətindir, çünki bir uşaqdan artığa icazə yox idi. Deməl, bir övlad həm öz ailə-uşağını, həm qoca ata-anasını saxlamağa məcbur olur. Bacı-qardaş da yox yardım edə. Gəl, indi yaşa. İt zülmüdür. Çində cüzi miqdar pensiyanı yalnız dövlət işində çalışmış müəyyən kateqoriya alırmış.

Di gəl, yerli kommunistlərin şefi Şi Çinpinq müəllim təzə qanun çıxarıb ömürlük dövlət başçısı olmaq istəyir. Çinin 2018 üçün hərbi xərclər büdcəsini açıqladılar təzəlikcə: 175 milyard dollar. 2016-da 146 milyard dollarmış. Gör nə qədər artırırlar. Nədən ötrü? Kimə qarşı? Bəşər Əsəd kimi qaniçənlərə dəstəyi artırmaq üçünmü? Camaata pensiya verə bilmir, hərbi büdcəni artırır. Milli "Cocuq Mərcanlı"nı - Tayvanı bəlkə geri ala bildilər...




# ABŞ Ermənistan iqtidarı ilə savaşa başladı - xəbərdarlıq və ittiham

## Sərkisyan rejimini korrupsiya və inhisarçılıqda suçlayan Amerika səfiri: "Ermənistan gələcək siyasi taleyi, hərbi əlaqələri barədə özü, sərbəst qərar verməlidir"; hakim partiyanın rəsmisi isə ABŞ-ı korrupsiyada ittiham elədi - nonsens...

**Ermənistanda getdikcə daha da gərginləşən ABŞ-Rusiya münasibətlərindən dolayı təlaş artıb. Təlaşın əsas motivi də işğalçı ölkənin regionda Kremlin 1 nömrəli dayağı və hərbi qalası olmaqla bağlıdır. Aydındır ki, bu amil Qərbin aparıcı dövləti kimi Birləşmiş Ştatların Güney Qafqaza təsirini yaymaq önündə ciddi əngəl olaraq qalır.**

Okeanın o tayından bu reallıqları təbii ki, görməzlikdən gələ bilməzlər. İrəvanın əsas müttəfiqi Rusiya həmçinin qonşu Gürcüstanın ərazisinin bir hissəsini işğal altında saxlayır ki, buna görə Ermənistan da məsuliyyət daşıyır. O üzdən son vaxtlar Rusiyaya qarşı yönələn sanksiyalar haqda danışarkən Ermənistanın adı daha tez-tez hallanmaqdadır.

*****

Bu arada ABŞ-ın Ermənistandakı səfiri Riçard Millz 1 in.am erməni nəşrinə geniş müsahibə verib. Gözlənildiyi kimi, yuxarıda qeyd edilən tezislər müsahibədə "qırmızı xətt" kimi keçib. "Yeni Müsavat"ın məlumatına görə, diplomat işğalçı ölkədə hökm sürən korrupsiyadan, ədalətsiz rəqabət mühitindən də danışıb və Ermənistan hökumətinə xəbərdarlıq xarakterli mesajlar verib.

**Səfir bu xüsusda deyib:** "Korrupsiyanın həyəcan doğuran və Amerika sərmayəsinin qarşısını alan bir forması da odur ki, onun nəticəsində bazarlar bağlanır, ədalətsiz rəqabət mühiti formalaşır. Məhz o zaman iqtisadi və siyasi əlaqələri olan nüfuzlu adamlar öz maraqlarını həyata keçirməkdən ötrü imkanlarını və rıçaqlarını işə salırlar. Nəticə etibarilə ədalətsiz mühit yaranır, hamı üçün bərabər oyun qaydaları bərqərar ola bilmir. Fikrimcə, korrupsiyanın bu tipi və hakimiyyətdən sui-istifadə Ermənistan üçün ən böyük bəla, ölkənin ticarət və investisiyalara açılması önündə ən böyük əngəl olaraq qalır".

**Diplomat Rusiya amilindən də danışıb.** "Biz Rusiyaya meydan oxuyan, dünyada Amerika təsirini azaltmağa çalışan dövlət kimi baxırıq. Bu ölkə təkcə Suriyada deyil, Avropada da təxribatçı hərəkətlər edib. Rusiyanın Gürcüstan ərazisinə soxulması, Ukrayna ərazilərinin işğalı, İkinci Dünya müharibəsindən sonra Avropanın təhlükəsizliyi üçün ən böyük hədədir", - deyə səfir qeyd edib.

**Diplomat ABŞ-Rusiya münasibətləri fonunda Ermənistanın tutduğu mövqeyə, Moskva ilə ifrat yaxınlaşmağa diplomatik tərzdə etiraz edib:** "ABŞ-la Rusiya arasında bütün cari problemlərə və çətinliklərə baxmayaraq, Amerika hökuməti anlayır ki, Ermənistan Rusiya ilə iqtisadi, diplomatik, mədəni və başqa sahələrdə yaxşı əlaqələrə malik olmalıdır. Biz Ermənistanı dilemma qarşısında qoymuruq, demirik ki, siz bizimlə Rusiya arasında seçim eləməlisiniz. Biz deyirik ki, ABŞ, Rusiya, Çin və Avropa Birliyi ilə əlaqələr bir-birinə zidd deyil. Birləşmiş Ştatların hədəfi odur ki, Ermənistan gələcəkdə siyasi olaraq necə inkişaf eləməsi, öz iqtisadiyyatını necə irəli aparması, kiminlə HƏRBİ ƏLAQƏLƏR QURMASI (seçdirmə bizimdir - "YM") qurması ilə bağlı özü, suveren qərar versin. Biz sizə sərbəst qərarlar qəbul eləmək qədər müstəqil olmağa kömək eləməyə hazırıq".

**Rusiyaya qarşı Amerika sanksiyalarına toxunan Riçard Millz deyib:** "Nəhayət, mən sizə bildirmək istəyirəm ki, ABŞ Konqresinin qəbul elədiyi sanksiyalar Rusiyanın özünü pis aparması, onun Ukraynaya təcavüzü, ABŞ-dakı prezident seçkilərinə və Avropadakı müttəfiqlərimizə qarşı davranışı əleyhinə yönəlib. Siyahı da Konqresin sifarişi əsasında tərtib olunub. Ora Putinin yaxın ətrafını təmsil edən adamlar, oliqarxlar, məmurlar daxildir. Və bu xəbərdarlıq Rusiya hökuməti və Rusiya şirkətləri ilə işi olan hər kəsə xəbərdarlıqdır. Əlbəttə ki, mən gələcək üçün zəmanət verə bilmərəm, amma əgər gələcəkdə bu strukturlardan biri ilə hansısa anlaşma olarsa, onlara qarşı da sanksiyalar tətbiq edilə bilər. Rusiyaya qarşı tətbiq olunan sanksiyalarda müddəalar var və orada deyilir ki, sanksiyalar Rusiya qaynaqlarından böyük həcmdə silah və döyüş sursatları alan hökumətlərə və ya təşkilatlara da şamil oluna bilər".

Ermənistan isə məlum olduğu kimi, ən ucuz qiymətə və kiçik faizli kreditlər hesabına Rusiyadan ən çox silah alan, öz işğalçı ordusunu müstəsna olaraq rus hərbi döyüş sistemləri və silah-sursatı hesabına komplektləşdirən bir təcavüzkar ölkədir...

*****

**Maraqlıdır ki, amerikalı diplomatın ittihamlarına rəsmi İrəvanın qəzəbli cavabı gecikməyib. "Yeni Müsavat" xəbər verir ki, parlamentdə çoxluqda olan hakim Respublikaçılar Partiyası fraksiyasının rəhbəri Vaqram Baqdasaryan deyib:** "Məsələ Ermənistana yatırılacaq milyonlarda deyil, korrupsiya ilə mübarizə üçün siyasi iradədədir. Biz təəssüf edirik ki, korrupsiya haqda korrupsiya ilə üzləşmiş ölkələrin nümayəndələri danışır. Avropa ölkələrində nələr baş verdiyinə baxın. ABŞ-da da korrupsiya riskləri var. Mən əlbəttə ki, cənab Millzə minnətdaram ki, o, bizim ölkədəki vəziyyətə görə narahatdır. Aydındır ki, o, səfir olduğu müddətdə hansısa uğura çatmaq istəyir. Ancaq o başa düşməlidir: o ölkələr ki, korrupsiyadan danışır, onlar özləri korrupsiyanı azaltmalı və bununla nümunə olmalıdır".

Ermənistana Amerika sərmayələrinə qarşı korrupsiyanın səviyyəsinin və inhisarçılığın əngəl olması barədə diplomatın dediklərinə münasibət bildirən hakim partiya rəsmisi səfiri konkret faktlar göstərməyə çağırıb...

*****

Əlavə edək ki, az öncə səfir Riçard Millz Ermənistan hökumətini Rusiyaya qarşı sanksiyaların təsiri altına düşə biləcəyi barədə xəbərdar eləmişdi. Yeri gəlmişkən, ABŞ-ın Milli Kəşfiyyat İdarəsinin direktoru Deniel Kouts dünən növbəti həftə ərzində Rusiyaya qarşı sanksiyaların daha da sərtləşdiriləcəyi anonsunu verib. Deməl, işğalçı Ermənistan da öz payını götürməlidir...

❑ "Yeni Müsavat"ın analitik xidməti



# “Putin NATO-su” generalının ikibaşlı bəyanatı

**“Əgər Qarabağda hərbi əməliyyatlar başlasa, KTMT hərbi bloku erməni tərəfinə kömək göstərməyəcək”. Bu bəyanatla Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) birləşmiş qərargahının rəisi, general-polkovnik Anatoli Sidorov çıxış edib.**

General “KTMT üzvü olan ölkələr üçün başlıca hərbi təhdidlər” mövzusunda keçirilən teleköprü zamanı bildirib ki, qondarma “DQR” bu bloka üzv “ölkə” deyil. KTMT kollektiv müdafiə barədə müqaviləni Ermənistanla bağlayıb və deməli, ancaq İrəvan qarşısında konkret öhdəlikləri var. Ermənistan vətəndaşları əmin ola bilərlər ki, zərurət yaransa KTMT onları darda qoymayacaq.

Rus general qeyd edib ki, Ermənistanla Azərbaycan arasında situasiya kifayət qədər gərgindir, amma o dərəcədə gərgin deyil ki, iki ölkə bir-birinin “paytaxtını tutmağa” başlasın. O, vaxtilə hər iki ölkənin “böyük sovet ailəsinin üzvü olduğunu, sülh və qarşılıqlı hörmət şəraitində yaşadığını” da xatırladıb.

General-polkovnik xatırladıb ki, KTMT bloka üzv olan bu və ya digər ölkənin cəlb olunduğu hərbi münaqişəyə qarışmaq səlahiyyətində deyil. Bunun üçün kömək barədə müraciət olmalıdır. NATO isə üzv ölkələrdən müraciət gözləmədən onlara hərbi dəstək verir. Sidorovun sözlərinə görə, bu heç də korrekt deyil və NATO üzvü olan ölkələrin suverenliyini pozur.

## **Elxan Şahinoğlu:** “Rusiya Ermənistanın Azərbaycana məğlub olmasını və Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həll olunmasını da istəmir”

Bəs KTMT-nin birləşmiş qərargahının rəisi, general-polkovnik Anatoli Sidorovun “Əgər Qarabağda hərbi əməliyyatlar başlasa, KTMT hərbi bloku erməni tərəfinə kömək göstərməyəcək” bəyanatı onun şəxsi mövqeyi sayılmalıdır, yoxsa Rusiyanın mövqeyini ifadə edir? Rusiyanın həqiqətən də KTMT müstəvisində Qarabağ müharibəsinə qarışmaması mümkündürmü?

**Politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a bildirdi ki, rusiyalı generalın bu mövqeyi onun şəxsi fikri ola bilməz. Bu Rusiya hakimiyyətinin yanaşmasıdır. Həqiqətdə də bu belədir. Rusiya Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Rusiya və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Ermənistanın təhlükəsizliyinə cavabdehdir, Dağlıq Qarabağın yox:** “Ancaq rusiyalı generalın bu sözlərini şişirtməyə də ehtiyac yoxdur. Rusiya Ermənistanın Azərbaycana məğlub olmasını və Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həll olunmasını da istəmir. Əks halda, Kremlı Ermənistan hakimiyyətinə çoxdan təsir edib münaqişənin həllini sürətləndirərdi.

Başqa tərəfdən, rusiyalı generalın “Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Dağlıq Qarabağda müharibə başlasa, erməni tərəfinə kömək edə bilməyəcək” sözləri heç də o demək deyil ki, Rusiya erməni separatçılarına kömək etməyəcək. Elə 1990-cı illərdə torpaqlarımızın işğalında Rusiyanın hərb maşını birbaşa və dolayı yollarla iştirak etmişdi, erməni separatçılarına lojistik dəstək vermişdilər. 2016-cı ilin aprel ayında savaşın cəmi 4 gün çəkməsi də Rusiya amili ilə bağlıdır. Kreml gördü ki, Azərbaycan ordusu bir az daha irəliləyib daha böyük ərazilər azad edə bilər, təzyiq etdi və savaş dayandı. Halbuki ordumuz daha çox ərazini azad edə bilərdi".

❑ Etìbar SEYÌDAĞA,
“Yenì Müsavat”

# Ermənistanda klanlararası hakimiyyət savaşı

## Düşmən ölkədə Qarabağ klanı siyasi səhnədən gedirmi...

**Ermənistan yeni konstitusiya ilə formal olaraq prezident respublikasından parlament üsul-idarəçiliyinə keçib. Martın 2-də parlament tərəfindən seçilən yeni prezident vəzifəsinin icrasına aprelin 9-dan sonra başlayacaq. Yeni konstitusiyaya görə, prezidentin səlahiyyətlərinin əksər hissəsi aprelin 2-də seçiləcək baş nazirə keçəcək. İcra hakimiyyətinə bundan sonra baş nazir rəhbərlik edəcək. Az qala simvolik vəzifəyə çevrilən prezident postuna yeni seçilmiş Armen Sərkisyan Ermənistandandır.**



Hazırkı baş nazir Karen Karapetyan da Qarabağdan deyil və onun aprelin 2-dən sonra da işğalçı ölkənin baş naziri postunu əldə saxlamaq istədiyi barədə məlumatlar yayılıb. Ermənistana 20 ildir ağalıq edən Qarabağ klanının başında hazırda prezident Serj Sərkisyan dayanır. Ermənistan mediasında yayılan xəbərlərə və şərhlərə görə, Serj Sərkisyanın baş nazir olaraq aprelin 2-dən sonrakı dövrdə də ölkəyə rəhbərlik etməsinin qarşısını Qarabağ klanına qarşı olan qüvvələr almaq istəyir. Serj Sərkisyanın sədrlik etdiyi Respublika Partiyasının hələ də baş nazir vəzifəsinə namizədini elan etməməsini səbəblərinin birinin də bu olduğu deyilir. Ermənistanda baş naziri parlamentdə səs üstünlüyünə malik partiya irəli sürməlidir. Respublika Partiyası səs üstünlüyünə malik olsa da baş naziri seçmək və hökuməti formalaşdırmaq üçün yetərli saya malik deyil. Ona görə də parlamentdəki digər partiyalardan biri ilə koalisiyaya getməlidir. Ermənistana Rusiya tərəfindən ezam olunan indiki baş nazir Karen Karapetyan həm də Respublika Partiyasının sədr müavinidir. Onunla Serj Sərkisyan arasında ziddiyyətlərin olduğu da erməni mediasında yazılır. Bildirilir ki, K.Karapetyan Rusiyaya, baş nazir vəzifəsinə və partiyada ikinci şəxs olmasına arxalanaraq postunu Serj Sərkisyana güzəştə getmək istəmir.

Bəs Serj Sərkisyanın partiyasının hələ də onun baş nazirliyə namizədliyini irəli sürməməsi onun baş nazir olmayacağı ehtimalını yaradırmı? Qarabağ klanı işğalçı ölkədə siyasi səhnədən gedə bilər?

**Politoloq Elçin Mirzəbəyli** “Yeni Müsavat”a bildirdi ki, Serj Sərkisyanın baş nazir postuna namizədliyinin irəli sürülməməsi Ermənistanın yeni konstitusiyasından irəli gələn hüquqi prosedurlarla bağlıdır. Prezident Serj Sərkisyanın səlahiyyət müddəti aprelin 9-da bitir. Prezidentin səlahiyyət müddəti bitənədək gələcək baş nazirin kimliyi ilə bağlı müəmma boşluğunu doldurmaq üçün Ermənistanın hakim partiyası qanunvericilik təşəbbüsü ilə çıxış edir. Daha doğrusu, Serj Sərkisyanın partiyası “Hökumətin strukturu və fəaliyyəti haqqında” qanunun müzakirəsini məqsədyönlü şəkildə indiyə saxlayıb: “Bəllidir ki, sözügedən qanun qəbul olunmadan baş nazir postuna namizədlərin irəli sürülməsi mümkün olmayacaq. ”Hökumətin strukturu və fəaliyyəti haqqında" qanun və hökumətin fəaliyyətini tənzimləyəcək digər qanun layihələri martın 6-da birinci oxunuşda müzakirəyə çıxarılıb. Çox güman ki, qanun layihələrinin müzakirəsi 2-ci və 3-cü oxunuş da daxil olmaqla, aprelin 9-dək uzadılacaq. Qanun layihələri qəbul olunanda isə həm Serj Sərkisyanın səlahiyyət müddəti başa çatacaq və dərhal da onun baş nazir postuna namizədliyi irəli sürüləcək. “Hökumətin strukturu və fəaliyyəti haqqında” Qanuna əsasən Ermənistan hökumətini baş nazir, baş nazirin birinci müavini də daxil olmaqla üç müavin və 17 nazir təşkil edəcək. Təhlükəsizlik Şurasına da baş nazir rəhbərlik edəcək".

Politoloq vurğuladı ki, Ermənistanda hazırda prezident parlament tərəfindən seçilir və simvolik olaraq konstitusiyaya nəzarət funksiyasını yerinə yetirir. Yəni parlamentin seçdiyi prezident Armen Sərkisyan heç bir ciddi səlahiyyətə və hökumətə təsir imkanlarına malik deyil. Bu isə o deməkdir ki, Ermənistanda Qarabağ klanının hakimiyyətdən getməsi barədə fikirlərin heç bir əsası yoxdur.

❑ Etìbar SEYÌDAĞA,
“Yenì Müsavat”

# Ermənisayaq tandedemokratiya baş tutdumu?..



**Hüseynbala SƏLİMOV**

**Nəzəriyyəçi politoloqlar siyasətə və xüsusən də geosiyasətə tətbiqən “teatr” kəlməsini işlədəndə bunda hansısa ironik məna nəzərdə tutmurlar, ona görə ki, “hərbi teatr”, “geosiyasi teatr” və s. kimi ifadələr kifayət qədər işlək və məzmunlu anlayışlardır.**

Amma bəzi hallarda siyasətdə məqamlar da olur ki, sözün hərfi mənasında “teatr” anlamına gəlir. Elə siyasət olur ki, hətta ötəri bir diqqət səndə belə təsəvvür yaradır ki, Vallah, bu lap bir “aktyorun teatrı” kimi şeydir və yaxud da elə məqamlar olur ki, görürsən ki, əməlli-başlı, lap əsl mənada “teatr” gedir və hamı rolunu oynayır...

Bir müddətdir ki, Ermənistanda cərəyan edən hadisələrə baxanda da ağlımıza gələn ilk söz “teatr” olmuşdu, ona görə ki, bu ölkənin birdən-birə durub siyasi modelini dəyişməsinin hansısa obyektiv əsası yox idi.

Orta statistik erməni üçün nə fərqi var ki, ölkədə prezident idarəçiliyidir, yoxa parlament?

O, daha çox onun hayındadır ki, imkan tapıb lənətlənmiş ölkəni tərk etsin, onun yükünü və məsuliyyətini də başqalarının - lap elə Suriyadan qaçmış bir erməninin üstünə atıb, cəhənnəm təəssüratı yaradan ölkədən birdəfəlik canını qurtarsın.

Ona görə də təkrar-təkrar bir fikrə qayıtmaq lazım gəlir ki, bütün bunlar Serj Sarkisyanın və hərbi-kriminal Qarabağ klanının oyunu idi - hakimiyyət bunlara artıq o qədər şirin gəlir ki, bunun üçün ölkənin siyasi modelini dəyişməkdən də çəkinmirlər.

Budur, demək olar, istədiklərinə çatıblar da; Serjik birinci mərhələni başa vura bildi, oxşar familiyalı dostunu özünün hazırladığı ən oyuncaq vəzifəyə gətirdi - Aram Sarkisyan Ermənistanın ilk oyuncaq prezidenti oldu, özü də alternativsiz - filansız. Burada “teatr” sözünü, “bir aktyorun teatrı” ifadəsini yada salmayasan, nə edəsən?

Təsəvvür edin, yeni prezidentlik institutu o qədər “axtalanıb” ki, prezidenti hətta Milli Təhlükəsizlik Şurasının tərkibinə qatmağı da nəzərdə tutmurlar. Bütün səlahiyyətlər baş nazirdə cəmləşəcək və o, ali baş komandan olacaq. Bu vəzifə isə Serj üçün nəzərdə tutulur.

Erməni politoloqlar yaranmış vəziyyəti “tandedemokratiya” adlandırırlar. Bəli, buna duumvirat (eyni vəzifəni iki adamın idarə etməsi) və ya tandedemokratiya demək olardı. Amma belə deyil, yenicə formalaşan sistemdə bütün səlahiyyətlər artıq qeyd etdiyimiz kimi, Serj cənablarının əlində olacaq.

Çox qalmayıb, artıq aprelin 9-da ölkə siyasi modelini dəyişərək rəsmən parlament idarəçiliyinə qədəm qoyur. Təxminən ay yarımdan sonra, aprelin 17-də baş nazir məsələsi də həll olacaq, maya qədər isə bütün bu maskarad bitəcək və “hökumət” qurulucaq.

Deyirlər ki, etirazlar olacaq. Amma olsaydı, vaxtında olardı. Ola bilsin, beş - on adam Baqramyan prospekti boyunca o yan - bu yana addımlayacaq, böyük hesabla isə hansısa dəyişiklik və yaxud da inqilab olmayacaq.

Qarabağ hərbi-siyasi teatrında da ciddi təbəddülat görünmür. Daha doğrusu, Ermənistanda quldur siyasi klan hakimiyyətdə qaldığı üçün siyasi müstəvidə nəsə ciddi dəyişiklik proqnozlaşdırılmır; Serjik yenə axmaq ritorikasını davam etdirəcək, güman ki, yenə Dağlıq Qarabağa bəribaşdan böyük status tələb edəcək, elə status ki, o, heç Ermənistanın özündə yoxdur. Bunların sərsəmliyi də elə bundadır. Bu adamlara demək lazımdır ki, əvvəl Ermənistanı müstəqil edin, sonra Qarabağ haqqında düşünün.

Mümkündür ki, hərbi müstəvidə yenidən qarşıdurma yaransın və hətta lokal toqquşmalar olsun. Amma iki il öncəki aprel döyüşlərindən sonra İrəvan hərbi əməliyyatların bərpasında maraqlı deyil, çünki onlar üçün əsas işğal etdikləri əraziləri saxlamaqdır. Həmin ərazilər isə əlavə təzyiq faktoru, siyasi “torq” predmeti və “DQR” ətrafında təhlükəsizlik zolağı kimi lazımdır onlara....

Rusiya amilindən də çox şey asılıdır. Qarabağdan danışanda gərək, Rusiya-Ermənistan cütlüyündən bəhs edəsən, çünki neçə illərdir ki, bu cütlüyə qarşı dayanmışıq və uğurumuz da o vaxt başlayacaq ki, cütlük arasındakı rabitə sarsılsın. Nə vaxt olacaq və hansı şəraitdə mümkündür bu - təəssüf, konkret söz demək çətindir.

Serjik Sürix protokollarını da ləğv etdi. Anlayırlar ki, nə qədər, Azərbaycan torpaqları işğal altındadır, Türkiyə ilə işləri alınmayacaq. Ona görə də Tiflis istiqamətində möhkəm vurnuxurlar, çünki coğrafi izolyasiya bunları yamanca sıxır. Biz də gərək, boş dayanmayaq, Tiflis siyasilərinə bəzi mətləbləri xatırladaq - axı siyasətçi tayfası unutqan olur.

YENİ MÜSAVAT
N 54 (6943) 8 mart 2018

# İlqar Məmmədovla bağlı son üç ay - azad ediləcəkmi...

## Fuad Ağayev: “Qərarın icrası üçün son müddətdir”
## Çingiz Əsgərov: “İlqar Məmmədovun nümayəndəsi vaxtından əvvəl bəyanat verib”



**REAL hərəkatının həbsdəki sədri İlqar Məmmədovun işi üzrə Avropa Məhkəməsinin qəbul etdiyi ikinci qərar qüvvəyə minib. Tələbə görə, qərar üç ay ərzində Azərbaycan hökuməti tərəfindən icra olunmalıdır və bu müddətdə vicdan məhbusu azadlığa buraxılmalıdır.**

Qərarın qüvvəyə minməsi barədə İ.Məmmədovun vəkili Fuad Ağayev məlumat verib. Vəkil “Yeni Müsavat”a açıqlamasında bunları dedi: “Qərarda göstərilən üç ay o demək deyil ki, gözləmək lazımdır bu müddət keçsin, sonra icra etsinlər. Bu bir neçə gün ərzində də ola bilər. Üç ay, sadəcə, qərarın icrası üçün son müddətdir. Hesab edirəm ki, Azərbaycanın Avropa Məhkəməsindəki səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov qərarı Ali Məhkəməyə göndərməlidir. Məhkəmə sədri də dərhal bu məsələni plenumun baxışına çıxarmalıdır. Məsələnin optimal həlli yolu iş üzrə icraata xitam verilməsidir, cinayət hadisəsi olmadığına görə. Azərbaycan hökumətinin Avropa Məhkəməsinin İlqar Məmmədovla bağlı martın 1-nə qədər rəsmi Bakıya cavab verməsi üçün göndərdiyi sorğuya cavab verilib-verilmədiyi də bizə məlum deyil. Cavab verilibsə belə, bu bizə hələ çatdırılmayıb”.

**REAL-ın İdarə Heyətinin üzvü Azər Qasımlı qərarı bu cür şərh etdi:** “İlk qərarda bildirilmişdi ki, İlqar Məmmədov qeyri-qanuni olaraq həbs edilib və bunun üçün azad olunmalıdır. Amma bu qərar icra olunmadı. Artıq ikinci qərar verildi. İlk qərarda olduğu kimi, burada da İlqar Məmmədovun azadlığı istənilir. Prosedura görə, üç ay ərzində istər birinci, istərsə də ikinci qərar icra olunmalıdır. Amma artıq ilk qərar icra edilməyib. Bir məsələni də deyim ki, sonuncu qərar Nazirlər Komitəsinin daha əvvəl qəbul etdiyi qərar əsasında Avropa Məhkəməsinə göndərdiyi sorğu nəticəsində qəbul edilməyib. Bu tamam başqa bir qərardır. Nazirlər Komitəsindən əvvəl İlqar bəyin verdiyi şikayət əsasında qəbul edilmiş bir qərardır. İndi üçüncü qərar olacaq. Azərbaycanın İlqar Məmmədovun məsələsi ilə bağlı üzərinə götürdüyü öhdəlikləri həyata keçirib-keçirməməsi ilə bağlı olacaq. Bununla bağlı Azərbaycan hökuməti ilə Avropa Məhkəməsi arasında martın 1-də kommunikasiya bitib. Yaxın üç ay ərzində Avropa Məhkəməsinin qərarını gözləyirik. Bu günə olan durum odur ki, Avropa Məhkəməsi İlqar Məmmədovun işi ilə bağlı ikin qərar verib. Hər iki qərarda da təzminat ödənilməsi, eyni zamanda İlqarın qeyri-şərtsiz azad edilməsi məsələsi var. İlk qərarın yalnız təzminat hissəsi icra olunub. Son qərarın isə icra olunub-olunmayacağını qarşıdakı üç ayda görəcəyik”.

“Avropa Məhkəməsinin qərarı 16 fevral 2018-ci ildə qüvvəyə minə bilərdi. Həm İlqar Məmmədov, həm də hökumət işə Avropa Məhkəməsinin Böyük Palatasında baxılması üçün ərizə verib”. Bunu isə haqqin.az-a **İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycanın səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov** deyib.

O bildirib ki, ərizəyə beş hakimdən ibarət komitə tərəfindən baxılır: “Ərizə rədd olunacağı təqdirdə 16 noyabr 2017-ci ildə verilən qərar qüvvəyə minəcək. İlqar Məmmədovun nümayəndəsi vaxtından əvvəl bəyanat verib. Çünki hələlik tərəflər komitə tərəfindən ərizəyə baxılmasının nəticələrinə dair rəsmi xəbərdarlıq almayıb”.

Səlahiyyətli nümayəndənin sözlərinə görə, Avropa Məhkəməsinin qərarında ərizəçinin azad edilməsi barədə heç nə deyilmir: “Yalnız qərar qüvvəyə mindikdən sonra ölkə qanunvericiliyində nəzərdə tutulan tədbirlər görüləcək”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# REAL-dan Milli Şura və Müsavata sərt ittihamlar





## Erkin Qədirli: “Öncə söyürlər, sonra mitinqə çağırırlar”
## Natiq Cəfərli: “Son 20 ildə xalqın ümidləri, istəkləri ilə oynaya-oynaya gəliblər”

**REAL hərəkatının Milli Şura və Müsavatın martın 10-da “Məhsul” stadionunda keçirəcəyi birgə mitinqdə iştirakdan imtina etməsi sosial şəbəkələri bir-birinə qatıb. REAL mitinqin təşkilatçısı olan hər iki siyasi qurumun tərəfdarları tərəfindən “məhşər ayağına” çəkilir, hərəkatın ünvanına ən sərt tənqidlər, təhqirlər səsləndirilir.**

**REAL-ın İdarə Heyətinin üzvü Erkin Qədirli öz facebook səhifəsində belə bir status paylaşıb:** “Öncə söyürlər, sonra mitinqə çağırırlar, sonra mitinqə çağırışın altındakı şərhlərdə söyürlər, sonra cavabın yubandığına görə söyürlər, sonra "yox" cavabımızı alandan sonra söyürlər. Söyüşdən başları açılandan sonra da deyirlər ki, REAL mövqeyini dəyişdi, satıldı və s. Bilin:

**1.** REAL-ın nə mitinqlərə, nə televiziyalara, nə apteklərə, nə tikinti şirkətlərinə, nə marketlərə, nə kafelərə, nə də adında “Real” sözü olan və bizdən qaynaqlanmayan başqa qurum və təşəbbüslərə aidiyyəti var.

**2.** REAL-ın harayasa çağırılması, REAL üçün çağırışa müsbət cavab vermək kimi bir öhdəlik yaratmır.

**3.** REAL-da bütün qərarlar kollegial verilir. REAL-ın sədri, lider olmasına baxmayaraq, çox sadə adamdır və onun çox sadə (yəni bir) səsi vardır. Həbsdə də ləyaqətlə, kiminsə boynuna minnət qoymadan oturub.

**4.** REAL-da “lider nə dedi, o da olur” kimi bir yanaşma yoxdur, heç zaman da olmayıb.

**5.** REAL-da heç kim hökumətdən nə pul, nə vəzifə alıb, nə də hökumətdə vurulandan sonra müxalifətə keçib (üstümüzə gələnlərin bəzilərindən fərqli olaraq). Hərçənd hökumətdən bizə dəfələrlə belə təkliflər olub. Ən çox da mənə olub. Yeri gəlmişkən, Natiq Cəfərlidən əl çəkin! Hər fürsətdə onu satqınlıqda günahlandırmağa girişənlər bilsin ki, REAL-da, onların (Natiq satqın adlandıranların) diliylə desək, hökumətə ən yaxın adam mənəm. Məndə olan əlaqələrin bircə faizi REAL-ı satqınlıqda ittiham edənlərdə olsaydı, yanlarından keçib onlara salam vermək mümkün olmayacaqdı (ədalarından). Xarici əlaqələrimiz də öz yerində. Biz əlaqələrimizdən şəxsən özümüzə fayda götürmək, ya da başqalarına ziyan vurmaq üçün istifadə etmirik. Onu da unutmayaq ki, REAL-ı mitinqə çağıranlara stadion verilir, REAL-a isə heç 200 nəfərlik otaq verilmir ki, qurultayını keçirə bilsin.

6. REAL-ın davranışı, onun üzvlük siyasətindən və çevrəsinin keyfiyyətindən irəli gəlir. Biz yarandığımız gündən bu yana əsas hədəfi orta sinif adlandırıla biləcək çevrəni düşünmüşük. Əslində bu çevrə kiçik və orta sahibkarlardan ibarət olmalıdı. Lakin bizdəki siyasi sistemin mənfi yan təsirləri ucbatından, bu çevrə əsasən kiçik və orta məmurlardan ibarət oldu. “Məmur” sözü burada geniş anlamda istifadə olunur - dövlət büdcəsindən birbaşa və ya dolayı (layihələrdən və müqavilələrdən) maaş alanları, gəlir götürənləri bildirir. Bunun da üzərinə elm, təhsil və maliyyə sektorlarında kiçik və orta vəzifələrdə çalışanlar, beynəlxalq təşkilatlarda və xarici şirkətlərdə işləyənlər, çeşidli kiçik sahibkarlıqla məşğul olanlar gəlinə bilər. Bu adamların duyğu və düşüncələri REAL üçün önəmlidir.

**7.** REAL-ın rəhbərliyi hər zaman üzvlərimizin təhlükəsizliyini düşünür, onları güdaza verməməyə çalışır. Bu, belə də olmalıdır. Gözlənilən nəticəni verməyəcəyi öncədən aydın olduğu hallarda üzvləri, özəlliklə gəncləri zərbə altında qoymaq REAL-ın siyasət anlayışına uyğun deyil.

**8.** və s. (uzatmaq istəmirəm).

REAL kimsəyə düşmən gözüylə baxmır, kimsədən də umacağı yoxdur. REAL hər kəsə ölkəmizin yararına uğurlar diləyir".

**Hərəkatın idarə heyətinin digər üzvü Xaliq Bağırov daha sərt reaksiya sərgiləyib:** “Adamlar yenə 2013-də ”Milli Şura" təsis ediləndə REAL-ın verdiyi qərardan sonra yaratdıqları havaya girirlər. Hətta eyni arqumentlər, eyni ittihamlar (parlamentdə yer danışığı, İlqar Məmmədovu buraxmaq alveri və sairə) təkrar olunur. Nə oldu bəs? Hələ də parlamentdə yoxuq, hələ də İlqar Məmmədov içəridədir? Hətta o vaxt müxalifət liderlərindən biri bizi “REAL Milli Şuraya getməsə, ictimai rəy onu məhv edəcək”, deyə xəbərdarlıq etmişdi. Bəs niyə REAL dağılmadı? Əksinə, etiraf edə bilərsiniz ki, böyüməyə davam etdi. Bəs o zaman o nə “ictimai rəydir” ki, sizdə belə yanlış fikir formalaşdırır? Ola bilsin ki, həmin “ictimai rəy” digər müxalifətdə olan təşkilatlar üçün vacibdir. Digər tərəfdən də bu “ictimai rəy”in onlara qazandırdıqları da ortadadır. Axı bu qədər qısa yaddaşlı olmaq olmaz. Hiss edirsinizmi eyni qapalı çevrənin içində dövr edirsiniz. Əminliklə bildirirəm ki, “ümumxalq” adlanan mitinqin belə olmayacağına elə mitinqə qərar verənlərin özləri də bilirlər. Çünki şəxsən mən onları bu qədər sadəlövh hesab etmirəm. Bilmirlərsə, o zaman 10 martdan sonra, yəqin izah etməli olacaqlar ki, niyə bunu bilmirdilər. Mənafelərinə uyğun da hərəkət etmək də haqlarıdır. Lakin bu səbəblər heç bir halda bu gün, məhz bu gün REAL-ı bağlamır. Amma bu xalq heç vaxt nəyinsə əleyhinə yox, nəyinsə uğrunda mütəşəkkilləşir".

**Müsavatçılar və cəbhəçilərin əsas hədəfinə çevrilən REAL-ın icraçı katibi Natiq Cəfərli fərqli fikrə dözümsüzlük hallarının durmadan artdığından gileyləndi:** “Fərqli fikirlərə həm hakimiyyət, həm də ənənəvi müxalifət düşərgəsində dözümsüz münasibət var. Çox zaman səslənən fikirləri başa düşmədən bu hücumları edirlər. İqtidar belə fikirləri daha çox xarici qüvvələrə işləmək, yaxud düşmən dəyirmanına su tökmək kimi ”arqumentlərlə" qələmə verməyə çalışır, ənənəvi müxalifət isə, hakimiyyətə işləmək kimi sırımaq istəyir. REAL artıq bu cür hallara öyrəşib. Hər zaman REAL-ı vaxtsız dəfn etməyə çalışırlar. Amma əksi olur, REAL durmadan güclənir. Bu baxımdan hücumların olması normaldır, amma təhqirlərin olması insanı xəyal qırıqlığına uğradır ki, cəmiyyət deklarasiya yuvarlanır. Bu günə qədər necə bir siyasət aparmışıqsa, eyni siyasəti də davam etdirəcəyik. Onun da az şahidi olmamışıq ki, REAL-ın verdiyi qərarları söyüşlə, təhqirlə qarşılayanlar bir müddət sonra özləri bir-birilərini təhqir etməyə başlayıblar. 2013-cü ildə Milli Şuraya getməməklə bağlı REAL qərar verəndə hətta o zaman bəzi siyasi liderlər belə dedi ki, REAL bununla özünün ölüm hökmünə imza atdı. Əksinə, bu günə qədər daha çox böyüyən təşkilat biz olduq. Bu gün də eyni situasiya yaranıb, bizi söyənlər bir müddət sonra bir-birilərinin üzərinə gedəcəklər. Təəssüf edirəm ki, tarix çox dar bir çərçivədə yenidən təkrarlanacaq. Əhalinin böyük bir hissəsi bunları kənardan izləyib, nəticə çıxarır. Xalqımız hər şeyi yaxşı dərk edir. Hər hansı bir prosesə xalq qoşulmursa, demək inanmır. Bu da onun haqqıdır. Çünki son 20 ildə xalqın ümidləri, istəkləri ilə oynaya-oynaya gəliblər. Ünvanımıza səsləndirilən ittihamlar həddindən artıq primitivdir. Köhnə müxalifətin ittihamlarından biri də odur ki, REAL gələcəkdə parlamentdə hər hansı bir mandat qazanmaq istəyir. Halbuki bu ittihamı səsləndirənlər indiyə qədər bu hakimiyyətdən bir və ya iki, hətta üç dəfə mandat alıblar. Ağıllı insanlar bir müddətdən sonra bizim haqlı olduğumuzu görəcəklər, üzr istəyəcəklər".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Rusiya Qarabaş savaşına qarışacaqmı - kritik sual haqda bir daha

“Rus NATO”su Sergey Lavrova qarşı - KTMT komandanı XİN başçısını təkzib edir; **politoloq:** “Rusiya müharibəyə müdaxilə edərsə, bu, artıq başqa dövlətə hərbi müdaxilə sayılacaq və məsələ BMT-yə çıxarılacaq”; **Qərb nəşri:** “Özünün böhranlı iqtisadiyyatı ilə Ermənistan yeni daxili siyasi qarşıdurmalar ərəfəsindədir...”



**Qəzetimizin ötən sayında işğalçı Ermənistanın “iki stul”da oturmaq siyasəti aparan hakim rejiminin son vaxtlar Rusiyanın iradəsi ziddinə Qərbə artan reveransları haqda yazmışıq. Parlamentdə seçilmiş 4-cü prezident, Böyük Britaniyadakı sabiq səfir Armen Sərkisyanın Qərbə bağlı şəxs olması da o sırada yer alır. Bundan öncə isə Ermənistan Avropa Birliyi (AB) ilə tərəfdaşlıq sazişi imzalamış, İrəvanın mərkəzində faşist əlaltısı Qaregin Njdeyə abidə ucaldılmışdı.**



Forpost və Kremlin müttəfiqi sayılan Ermənistandan bu kimi qəfil reveranslar artıq Rusiyanın ən azından ekspert ictimaiyyətində ciddi etirazlar doğurmağa başlayıb. Məsələn, rusiyalı tanınmış tarixçi-analitik Oleq Kuznetsov İngiltərədəki səfirin Ermənistan prezidenti seçilməsini Rusiyanın təhlükəsizliyi baxımından Moskvaya əlavə problemlər yaradacağını söyləyib. Sitat: “Ermənistan Avropa Birliyi ilə assosiasiya sazişi imzalayanda Rusiya siyasi elitası real olaraq şok keçirdi. Britaniyadakı sabiq səfirin Ermənistan prezidenti seçilməsi isə Rusiya üçün ”ikinci şillə" oldu".

Politoloq yaranmış vəziyyətin üç mümkün inkişaf ssenarisindən də danışıb. Həmin variantlardan birinə görə, Rusiya Ermənistana cəza olaraq, Azərbaycanın işğal altındakı ərazilərlə bağlı atacağı istənilən addımı təqdir eləməlidir. Yəni Bakının antiterror əməliyyatına mane olmamalıdır. Hərçənd ötən il açıqlamalarının birində Rusiyanın erməni kökənli xarici işlər naziri Sergey Lavrov Azərbaycanın daxili işlərinə müdaxilə edərək, belə bir avantürist açıqlama vermişdi ki, “Qarabağda hərbi əməliyyatlar Azərbaycanın daxili məsələsi deyil”. Halbuki Rusiyanın özü çeçen xalqının haqq etdiyi mili-azadlıq hərəkatını “antiterror əməliyyatı” bəhanəsi ilə qan içində boğarkən heç bir ölkədən, o cümlədən Azərbaycandan icazə almamışdı. Belə çıxır ki, “Güclü həmişə haqlıdır”?..

*****

Bütün hallarda Azərbaycan öz ərazilərini işğaldan hərb yolu ilə azad edərkən iki dəfə düşünməli, ilk növbədə də Rusiyanın mümkün davranışını hesablamağı bacarmalıdır. Bu yöndə şərh və proqnozlar davam edir.

**“Dağlıq Qarabağdakı separatçı qurum ”DQR" Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvü deyil. O üzdən Dağlıq Qarabağda hər hansı savaş başlayarsa, separatçılara KTMT tərəfindən heç bir hərbi dəstək verilməyəcək". Bunu Ermənistanın da üzv olduğu, “Rus NATO-si” kimi tanınan KTMT Birləşmiş Qərargahının rəisi general-polkovnik Anatoli Sidorov “KTMT-yə üzv ölkələr üçün başlıca hərbi təhdidlər” mövzusunda keçirilən telekörpü zamanı söyləyib.**

“KTMT bütün razılaşmaları konkret olaraq Ermənistanla imzalayıb və deməli, yalnız İrəvan qarşısında öhdəliyimiz var. Ermənistan vətəndaşları əmin ola bilərlər ki, KTMT ehtiyac yaranacağı təqdirdə onları darda qoymayacaq”, - deyə o bildirib. Generalın sözlərinə görə, Azərbaycanla Ermənistan arasındakı vəziyyət olduqca gərgindir, hətta o dərəcədə ki, hər iki ölkə dəfələrlə bir-birilərinin paytaxtlarını almağa çalışıblar.

**Sidorov həmçinin bu iki ölkənin “böyük sovet ailəsində” sülh və qarşılıqlı hörmət şəraitində yaşadığını xatırladıb. General onu da əlavə edib ki, KTMT blokuna üzv olan bu və ya digər ölkənin cəlb olunduğu hərbi münaqişəyə qarışmaq səlahiyyətində deyil.** “Bunun üçün kömək barədə müraciət olmalıdır. NATO isə üzv ölkələrdən müraciət gözləmədən onlara hərbi dəstək verir. Bu isə heç də korrekt deyil və NATO üzvü olan ölkələrin suverenliyini pozur” - qərargah rəisi fikrini tamamlayıb.

*****

**“Azərbaycan müharibəyə başlayarsa, bu prosesə nə KTMT, nə də Rusiya qoşula bilər. Çünki bu, ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda gedən prosesdir”. Bu sözləri axar.az-a açıqlamasında sabiq dövlət müşaviri Qabil Hüseynli rus generalın fikrini şərh edərkən deyib. Politoloq hesab edir ki, Azərbaycan öz daxilində separatizmə qarşı mübarizə adı altında hərbi əməliyyatlara başlamaq haqqına sahibdir.**

“Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və dünyanın heç bir ölkəsi onun müstəqilliyini tanımayıb. O üzdən Azərbaycan müharibəyə başlayarsa, bu prosesə nə KTMT, nə də Rusiya qoşula bilər. Çünki bu, ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda gedən prosesdir. Düşünürəm ki, Moskva bu prosesə zərrə qədər də müdaxilə etməməlidir. Son zamanlar rusiyalı siyasətçilərin bu barədə tez-tez danışması təsadüfi deyil. Görünür, danışıqlar gedir. Hazırda Azərbaycanın əlində çox ciddi faktlar var. Təkcə ermənilərin Dağlıq Qarabağdan kənarda məskunlaşma siyasəti aparması yetərlidir ki, torpaqlarımızın azadlığı üçün müharibəyə başlayaq”, - deyə politoloq qeyd edib.

**Onun sözlərinə görə, əgər Rusiyanın Ermənistandakı qoşunları müharibəyə müdaxilə edərsə, bu, artıq başqa dövlətin ərazisinə hərbi müdaxilə kimi qəbul ediləcək və məsələ BMT səviyyəsinə qaldırılacaq:** “Hazırda Dağlıq Qarabağda Ermənistan qoşunlarıdır və təlimatçılar işğalçı ölkədəki hərbi bazaların hərbçiləridir. Yəni müharibə prosesində Dağlıq Qarabağı Ermənistan və oradakı rus hərbi bazaları da təchiz edə bilər. Düzdür, bunu sübut etmək o qədər asan olmayacaq. Bakı hər ehtimala qarşı, Moskva ilə danışıqları davam etdirməklə bərabər, seçkilərdən sonra sülh danışıqları prosesini də nəzərdən qaçırmayacaq. Ermənistan onsuz da yenə qeyri-konstruktiv mövqe tutacaq. Azərbaycan bütün bu məsələləri dəqiqləşdirdikdən sonra dünyaya bəyan edə bilər ki, Ermənistan təkcə Dağlıq Qarabağda deyil, onun hüdudlarından kənarda da məskunlaşma və özününküləşdirmə siyasəti apararaq beynəlxalq hüquq normalarını kobud surətdə tapdalayır. Azərbaycan bu fonda öz ərazi bütövlüyünü təmin etmək və məskunlaşma prosesini dayandırmaq üçün əlində olan vasitələrdən istifadə edəcək. Çünki İrəvan Bakıya başqa yol qoymur”.

*****

**Bu arada Qərb analitikləri də işğalçı Ermənistanın Rusiya ilə münasibətlərində müşahidə edilən son gəlişmələrə diqqət ayırmağa başlayıb. Məsələn, İsveçrənin “Neue Zürcher Zeitunq” nəşri bu xüsusda yazıb:** “Ötən il Avropa Birliyi ilə tərəfdaşlıq sazişi imzalayanadək Ermənistanın xarici siyasəti həmişə Moskvaya oriyentasiyalı idi. Moskva Ermənistanda iqtisadi və siyasi təhlükəsizlik planında həlledici qüvvədədir. Ancaq Avrasiya İqtisadi Birliyinə qoşulmaq ona xeyirdən çox zərər gətirib. Xarici siyasətdə İrəvan yenidən maraqları balanslaşdırmağa çalışır. Öncə Sərkisyanın Türkiyə ilə yaxınlaşmaq cəhdləri uğursuzluğa uğradı. Rusiyaya gəlincə, burda da İrəvan Rusiya silahlarının Azərbaycana verilməsindən yana məyusdur - hansı Azərbaycana ki, münasibət daha davakar xarakter alıb. Belə xarici siyasət özəllikləri ağır inkişaf edən iqtisadiyyatla birgə yekun etibarilə Ermənistanda keçmişdə olduğu kimi təzədən daxili siyasi qarşıdurmalara gətirəcək”.

**Bu qəbildən proqnozların həqiqət yükünə isə yəqin ki, tezliklə əminlik hasil edəcəyik.**



Endrü Şefer

## “Nə hərb, nə də sülh vəziyyəti uzun sürə bilməz” - amerikalı vasitəçi

**“Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində indiki status-kvo uzunmüddətli perspektivdə saxlana bilməsə də, bu münaqişənin hərbi həll yolu yoxdur”.**

Bunu “Trend”ə eksklüziv müsahibəsində ABŞ-ın ATƏT-in Minsk Qrupundakı həmsədri Endrü Şefer deyib. Diplomat vurğulayıb ki, ABŞ münaqişənin həlli üzrə danışıqlar prosesini dəstəkləyir və həmsədr ölkə qismində Azərbaycan və Ermənistanla fəal qarşılıqlı fəaliyyəti davam etdirəcək: “ABŞ-ın uzunmüddətli siyasəti ondan ibarətdir ki, ədalətli nizamlanma beynəlxalq hüquq normaları, o cümlədən Helsinki Yekun Aktı və onun güc tətbiqetməmə, ərazi bütövlüyü prinsiplərinə, bərabər hüquq və öz müqəddəratını təyinetmə hüququna əsaslanmalıdır”.

E.Şeferin sözlərinə görə, Azərbaycan və Ermənistan prezidentlərinin 2017-ci il Cenevrədə danışıqlar prosesinin intensivləşdirilməsi və gərginliyin azaldılması ilə bağlı əlavə tədbirlərin görülməsi üçün götürdüyü öhdəliklər bu reallığı əks etdirir: “Cenevrədəki görüşdən sonra biz münaqişə tərəfləri ilə öhdəliklərin həyata keçirilməsi üçün böyük iş aparmışıq və bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik”.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Qidamız nə zaman təhlükəsiz olacaq?

## Qida Təhlükəsizliyi üzrə Dövlət Agentliyi hələ işini tam gücdə qura bilmir




**Təhlükəsiz qidalanma hər kəsin haqqıdır. Bu haqqın təmin olunması isə dövlətin vətəndaşlar qarşısında əsas öhdəliklərindən biridir. Azərbaycanda indiyədək bilavasitə qida təhlükəsizliyi ilə məşğul olan ayrıca qurum olmayıb. Bu işi 7-8 dövlət orqanı birlikdə həyata keçirib. İndi isə iki aydır ölkədə Qida Təhlükəsizliyi üzrə Dövlət Agentliyi fəaliyyətə başlayıb.**

Prezidentin sərəncamı ilə təsdiqlənən əsasnamədən aydın olur ki, agentliyə çoxşaxəli səlahiyyətlər verilib. Bu səlahiyyətlər qida zəncirinin bütün halqalarında təhlükəsizliyə nəzarət mexanizminin yaradılması məqsədi daşıyır. Hələlik agentlik bu mexanizmi qurmağa vaxt baxımından imkan tapmayıb. Belə ki, istehlak bazarında saxta, keyfiyyətsiz, vaxtı keçmiş, yaxud digər xüsusiyyətlərinə görə istifadəsi təhlükə yaradan məhsullar sarıdan bolluqdur.

**Qida Təhlükəsizliyi üzrə Dövlət Agentliyinin media mərkəzindən verilən məlumata görə, ölkə prezidentinin 2017-ci il 10 fevral tarixli 1235 nömrəli Fərmanı ilə yaradılan qurumun əsas vəzifələrindən biri əhalinin təhlükəsiz və sağlam qida məhsulları ilə təmin olunmasına nail olmaq, istehlakçıların hüquqlarını müdafiə etməkdir. Fəaliyyətdə olduğu 2 ay ərzində Agentliyin Aparatının strukturu təsdiq olunub:** “Regional bölmələrin, o cümlədən Bakı şəhərinin strukturu, Qida Təhlükəsizliyi İnstitutunun Nizamnaməsi təsdiq olunma mərhələsindədir. Prezidentin müvafiq fərman və sərəncamlarına uyğun olaraq, hazırda Qida Təhlükəsizliyi Agentliyinin regional bölmələrinin struktur və maddi-texniki bazasının formalaşdırılması, laboratoriyaların təhvil-təslim işləri həyata keçirilir”.

**İstehlak bazarına nəzarətə gəlincə, qurumdan deyirlər ki, Qida Təhlükəsizliyi Agentliyinin əsasnaməsində göstərildiyi kimi, Agentlik qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən sahibkarlıq subyektlərini qeydiyyata alacaq və reyestrini aparacaq:** “Hazırda bu istiqamətdə Agentliyin fəaliyyətini təmin etmək məqsədi ilə qanunvericilikdə müəyyən dəyişikliklər hazırlanır və uyğunlaşmalar aparılır. Qida Təhlükəsizliyi Agentliyi bu prosesi mərhələli şəkildə həyata keçirməyi, bu sahədə vətəndaş məsuliyyətini artıracaq yöndə geniş maarifləndirmə işləri görməyi planlaşdırır”.

Beləliklə, aydın olur ki, qida təhlükəsizliyimizin təmin olunması üçün hələ azı bir neçə ay daha gözləməli olacağıq.

Xatırladaq ki, dövlət qurumları tərəfindən sahibkarlıq subyektlərində yoxlamaların dayandırılması müddəti uzadılarkən qida təhlükəsizliyinin təmin olunması məqsədli yoxlamalar istisna edilib. Yeni Qida Təhlükəsizliyi Agentliyinə qida məhsullarının istehsalı, emalı və satışı mərhələlərinin hər birində təhlükəsizliyin təmin olunması üçün yoxlamalar aparmağa icazə verilib.

❑ **DÜNYA,
“Yeni Müsavat”**

# Dəm qazı faciələrini önləmək üçün qazdan imtina təklifi





**Tanrıverdi Mustafayev:**
“Ölkəni artıqlaması ilə elektrik enerjisi ilə təmin etmək gücündəyik”

**İbrahim Kərbalayev:**
“Araşdırmışıq ki, ölümlərin səbəbi vətəndaşın texniki təhlükəsizlik qaydalarına əməl etməməsidir”

**Ölkədə dəm qazı illərdir ki, can almaqda davam edir. Mütəxəssislər, müvafiq qurumlar əhaliyə media vasitəsilə maarifləndirici məlumatlar ötürsələr də, hər il qış aylarında dəm qazı faciələri ilə bağlı xəbərlər səngimir.**

Son 1 həftəyə nəzər salsaq görərik ki, iki fərqli hadisə nəticəsində ölkə ərazisində dəm qazından 8 nəfər dünyasını dəyişib. Martın 4-də Sumqayıtda bir ailənin 6 üzvü zəhərlənib öldü. Martın 6-da isə Bakıda azyaşlı uşaqlar - Dinarə Qüdrətova və Bünyamin Qüdrətov qazdan boğularaq vəfat ediblər.

Səhiyyə Nazirliyinin Kliniki Tibbi Mərkəzinin (KTM) Toksikologiya şöbəsinin müdiri Azər Maqsudov "Trend"ə bildirib ki, bu ilin yanvar ayında 18, fevral ayında 15 nəfər dəm qazından zəhərlənib.

Müqayisə üçün qeyd edək ki, ötən il fevral ayında 26 nəfər zəhərlənmişdi. Mütəxəssislər bildirirlər ki, bu il zəhərlənmələrin az olmasını heç də görülən profilaktik tədbirlərin nəticəsi saymaq olmaz. Bildirilir ki, bu il havaların mülayim keçməsi dəm qazından zəhərlənmələrin az olmasına təsir edib.

Avropada və digər inkişaf etmiş ölkələrdə mənzillərin qızdırılması mərkəzi istilik sistemi əsasında həyata keçirilir. Vətəndaş birbaşa olaraq qazla təmasda olunmadığı üçün dəm qazından boğulma halları da bizdəki kimi geniş yayılmır. Artıq Azərbaycanda dəm qazından boğulma sanki adiləşib. Bəs bunun qarşısının alınması üçün evlərə verilən təbii qaz, tarif şərtləri aşağı olan elektriklə əvəzlənə bilərmi?

**“Yeni Müsavat”a danışan “Azərişıq” ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev bildirib ki, qurumları ölkəni artıqlaması ilə elektrik enerjisi ilə təmin etmək gücündədir:**

“Ancaq belə olarsa, gərək orta statistik vətəndaş aldığı əmək haqqının yarıdan çoxunu işıq pulu kimi dövlətə ödəsin. Tariflərin aşağı salınması isə bizim səlahiyyətimizdə deyil. Bizim işimiz əhalini elektrik enerjisi ilə təmin etməkdir ki, bunu da edirik. Azərbaycanın elektrik təchizatında heç bir problem yoxdur. 24 saat keyfiyyətli, dayanıqlı elektrik enerjisinin verilməsi tərəfimizdən təmin olunur”.

**“Azəriqaz” İstehsalat Birliyinin mətbuat xidmətinin rəhbəri İbrahim Kərbalayev isə söyləyib ki, əhali arasında maarifləndirmə işlərini aparırlar:**

“Aidiyyəti qurumlarla birlikdə mütəmadi olaraq maarifləndirmə işləri aparırıq. Özü də bu işlər genişmiqyaslı şəkildə görülür. Ancaq əfsuslar olsun ki, qış aylarında dəm qazında zərərçəkənlər olur. Araşdırmışıq ki, bunun da səbəbi vətəndaşın texniki təhlükəsizlik qaydalarına əməl etməməsidir. Mənzillərə texniki baxışların keçirilməsi Nazirlər Kabinetinin 2016-cı il 29 aprel tarixli 178 və 183 saylı qərarının 2.7-ci bəndi ilə tənzimlənir”.

**Məsələ ilə bağlı “Yeni Müsavat”a danışan iqtisadçı Natiq Cəfərli ölkənin mövcud iqtisadi durumunu dəyərləndirərək bildirib ki, hazırda mənzillərdə istiliyin elektrik enerjisi ilə təmin olunması mümkün deyil:**

“Avropa ölkələrində qaz olmadığı üçün elektrik enerjisi ilə mənzillərin qızdırılması geniş yayılıb. Azərbaycanda isə belə keçidin baş tutması üçün milyardlarla vəsaitə ehtiyac var. Düşünmürəm ki, hökumət bu yöndə hansısa addım atsın. Ancaq hər halda, çox kiçik bir xərclərlə bu problemin həllində müəyyən irəliləyiş əldə etmək olar. Avropa ölkələrində yaşayış, iş yerlərində qaz detektorlarının qoyulması məcburidir və buna da dövlət tərəfindən dəstək verilir. Azərbaycanda təqribən 2.3 milyon nəfərə yaxın abunəçi sayı var. Yəni qaz istifadəçilərinin sayı o qədər də böyük deyil. Söylədiyimiz cihazların qiyməti isə 20-30 manat civarında dəyişir. Böyük şirkətlərlə müqavilə bağlasalar, təqribən 40-50 milyon manata bütün abunəçiləri qaz detektoru ilə təmin etmək olar. Bu, mütləq olmalıdır. Cihazlar qoyulsa, ən azından vətəndaş özü-özünü qorumağa çalışar. Qazın tərkibində hansısa dəyişiklik olan kimi cihaz siqnal verir və ailə vəziyyətdən xəbərdar olur. Bundan əlavə, televiziyalarda da bütün günü boş-boş şou proqramları göstərincə, maarifləndirmə işləri aparıb, əhaliyə məsləhətlər verməli, sosial çarxlar çəkilməlidir. Eyni zamanda dövlət üzərindən bəzi yükü atsa, yaxşı olar. Hələ ki bütün qazpaylayıcı şəbəkələr dövlətin əlindədir. Dövlət isə bu işi yaxşı görmür. Qazpaylayıcı şirkətləri, özəl şirkətləri uzun müddətə icarəyə vermək olar. 25 və ya 49 illik müqavilə bağlayaraq vətəndaşla özəl şirkətlər arasındakı müqavilənı normal hala gətirmək mümkündür. İndi bütün müqavilələrdə hər bir məsuliyyət vətəndaşın çiyninə yüklənib və vətəndaş dövlət orqanlarını məhkəməyə verib, uda da bilmir. Heç olmasa belə bir addım atılsa özəl şirkətlərlə vətəndaşlar arasındakı müqavilələr ikitərəfli məsuliyyət əsasında hazırlanar. Məhkəmə çəkişməsi olduqda isə dövlət ədalətli hakim rolunda çıxış edərək, vətəndaşın haqqını qorumağa çalışar. Elektrik enerjisinə keçidlə bağlı hansısa addımın atılacağını düşünmürəm. Qaz ölkəsi olan Azərbaycanın belə bir addım atması məntiqə də uyğun olmaz”.

**Ekspert bildirib ki, “Azəristiliktəchizat” ASC-nin xidmətindən ölkə əhalisinin 10 faizi istifadə edir:** “Yeni binalar tikilir ki, orada mərkəzləşmiş istilik sistemləri quraşdırmaq daha asandır. Bu, qanunvericilik şəklində ya dövlət-özəl şirkət məsuliyyət bölgüsü formasında həyata keçirilə bilər. Yaxud da özəl şirkətlərə müəyyən güzəştlər tətbiq etməklə, onlara qazanxanaları normal şəkildə istifadəyə verib, istilik sistemlərinin qurulması məcburiyyəti gətirilə bilər. Bundan əlavə, stimullaşdırıcı addımlar da atılmalıdır. Məsələn, özəl şirkətin çəkdiyi xərcin bir hissəsini dövlət vergi xərcini azaltmaqla ona bağışlaya bilər. Hər halda, istilik sistemləri quraşdırılsa belə, təbii qazın mətbəxlərdə istifadəsi mütləq olacaq”.

❑ **Əli RAİS,
“Yeni Müsavat”**

# Tovuz və Gədəbəyin istifadəsiz qalan turizm potensialı

## Ekspert həm tarixi abidələri, həm də təbiəti ilə göz oxşayan bu bölgəyə diqqətin az olmasının səbəblərindən danışdı

**Azərbaycanda qeyri-neft sektorunun inkişafından söhbət gedəndə ilk olaraq diqqət çəkən sahələrdən biri də turizmdir. Məlum olduğu kimi, Azərbaycanın həm paytaxtında, həm də bölgələrimizdə böyük turizm potensialı mövcuddur. Bu günə kimi bir neçə rayon turizm mərkəzi kimi ad qazanmağa nail olub və xaricdən gələn turistlərin əksəriyyəti də məhz bu rayonlara üz tutur.**




Söhbət Qəbələ, İsmayıllı, Qax, Şəki, Quba və digər rayonlardan gedir. Ancaq elə rayonlarımız da var ki, həm tarixi abidələri, həm də təbiətinin əsrarəngiz gözəllikləri ilə göz oxşasa da, hələ ki turizm potensialı inkişaf etməyib. Belə rayonlardan biri Tovuzdur. Bu rayonun əlverişli iqlim şəraiti, təbiət mənzərələri, bulaqları bu bölgədə turizmin inkişafı üçün geniş imkanlar açır. Bu səbəbdən də son vaxtlar rayona xarici ölkələrdən turistləri cəlb etmək üçün məqsədyönlü tədbirlər həyata keçirilir.

Qeyd edək ki, artıq əvvəlki kimi yol-marşrut problemi də yoxdur. Dövlətin həyata keçirdiyi infrastruktur layihələri çərçivəsində rayonların yolları artıq normal vəziyyətdədir.

Kür çayı vadisini əhatə edən ərazilərdə quru-subtropik iqlimin, düzənlik hissədə və yüksəkliyi 1000-dən 2000 metrə qədər olan ərazilərdə mülayim-soyuq meşə iqliminin mövcudluğu Tovuzun flora və faunasının zənginliyindən xəbər verir. Rayonun dağlıq ərazilərində zəngin meşələrin, təbii bulaqların, əsrarəngiz gözəlliyi olan təbiət mənzərələrinin, tarixi abidələrin mövcudluğu turistlərin qəbulu üçün əlverişli şərait yaradır. Rayon mərkəzindən 12 km məsafədə, Kür çayının sağ sahilində yerləşən "Torpaqqala" qədim yaşayış məntəqəsi də turizm üçün maraqlı məkandır.

Aşağı Quşçu kəndi ərazisində Bakı-Qazax magistral yolunun bir kilometrliyində eramızdan əvvəl VI minilliyə aid edilən "Göytəpə" yaşayış məskəni turistlərdə ölkəmizin tarixi barədə təsəvvür yaradan ən dəyərli məkanlardan hesab olunur. Vahidli kəndində Axıncı çayı üzərində XIX əsr memarlıq abidəsinə aid edilən "Sultan körpüsü", həmin kənddə xüsusi coğrafi quruluşa malik "Qala düzü" adlanan ərazi, yeni tikilən su anbarı da maraqlı turizm obyektidir.

Bundan əlavə, Tovuz şəhərində 1923-cü ildə alman icması tərəfindən tikilib istifadəyə verilmiş şərab zavodu artıq "Şərab yolu marşrutu" turizm layihəsinə daxil edilib. Tovuz şəhərinin ərazisində yeni inşa olunmuş karvansaray tipli "Qala", "Üç qala" kompleksi, "Olimpiya zirvəsi" İpək Yolu boyunca turizm marşrutu kimi dəyərləndirilir. Ümumiyyətlə isə rayonda 61 daşınmaz tarixi və mədəniyyət abidəsi qeydiyyatdadır. Həmçinin Tovuz Tarix-Diyarşünaslıq Muzeyi, Heydər Əliyev Mərkəzi, Aşıq Sənəti Dövlət Muzeyi, Rəsm Qalereyası turistlərə yerli mədəni irsimizin elementlərini göstərmək məqsədilə eksponatlarla zəngindir.

**Tovuz Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Aydın Qasımovun sözlərinə görə, hazırda bölgədə 4 istiqamətdə turizm marşrutu müəyyənləşdirilib:** "Rayonda 50-yə yaxın turizm obyekti fəaliyyət göstərir. Şəhərin girəcəyində - Tovuz çayının sol sahilində ümumilikdə 5 hektar sahəsi olan Tovuz Olimpiya İdman Kompleksi müasir tələblərə cavab verən idman və istirahət mərkəzidir. Komplekslə üzbəüz 10,2 ha sahədə Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkı yaradılıb. Onu da qeyd edim ki, bu park öz ərazisinə görə respublikanın ən iri parklarından biridir. Tovuz Tarix-Diyarşünaslıq Muzeyi, Heydər Əliyev Mərkəzi, Aşıq Sənəti Dövlət Muzeyi, Rəsm Qalereyası turistlərə yerli mədəni irsimizin elementlərini göstərmək məqsədilə eksponatlarla zəngindir".




Qeyd edək ki, Azərbaycanın qərb bölgəsində turizmin inkişafı Mədəniyyət və Turizm Nazirliyinin prioritet istiqamətlərindən biridir. Son illər bölgədə bu məqsədlə bir sıra layihələr həyata keçirilib.

Turizm potensialı olan bölgələrdən biri də Gədəbəydir. Bu regionun təbiətindən başqa, turistlərin diqqətini cəlb edə biləcək digər məkanları da var. Gədəbəy qızıl emalı zavodu da bunlardan biridir. Gədəbəy Qızıl Zavodunun turizm marşrutuna salınması maraqlı ola bilər. Rayonda 130-dan çox tarixi abidə mövcuddur. Burada dünya memarlıq incisi kimi qorunub saxlanan Qız qalası var. Bəzi mənbələrdə bu qalanın IX əsrdə tikildiyini yazırlar. Amma o, IV əsrin abidəsidir. Qız qalasının ətrafında Məhrasa deyilən bir tikili də var. Bu, vaxtilə Nəsrəddin Tusi tərəfindən inşa edilən Marağa rəsədxanasının filialı olub. Qız qalası ətrafındakı mənzərəli yerlər olduqca cəlbedicidir. Bu qalaya gələn marşrut dağlardan, çaylardan, meşələrdən keçir.

Rayonun ərazisindən böyük çaylar keçir. Zəyəm, Şəmkir, Tovuz çayları öz mənbəyini Gədəbəydən götürür. Bu çayların ətrafında nəhəng meşə massivləri var. Bu meşələr və dağlar gözəl görünüşü ilə yanaşı, turizmin bəzi növləri üçün zəngin potensialdır. Bütün dağlarımız Alp çəmənliyindən ibarətdir. Gədəbəy dağlarının bir kvadrat metr ərazisində 100-dən çox ot və dərman bitkiləri var.

Turist artımının mühüm səbəblərindən biri, bütün ölkəmizdə olduğu kimi, bu rayonda da aparılan geniş tikinti-quruculuq işləridir. Yol infrastrukturu qurulur. Ölkənin sosial iqtisadi inkişaf dinamikası artır. Bütün bunlar regionlarda turizmin inkişafı üçün gözəl zəmindir. Bundan əlavə, turizm fəaliyyəti ilə məşğul olan sahibkarlara şərait yaradılır.

Qeyd edək ki, son illər hər iki rayonda yüksək səviyyəli hotel və mehmanxanalar, əyləncə və istirahət mərkəzləri tikilib. Bundan əlavə, əhali də turistləri öz evində qonaq etməkdə maraqlıdır. Bu, həm rayonun daha çox turist qəbul etməsinə, həm də rayon əhalisinin yay mövsümündə yetərincə qazanc əldə etməsinə səbəb ola bilər. Necə ki, bu təcrübə artıq bir çox rayonlarda mövcuddur.

Hökumətin əsas prioritet proqramlarından biri olan "regionların sosial-iqtisadi inkişafı"nın bir qolu da məhz turizmlə bağlıdır. Bu baxımdan bütün bölgələrdə bu istiqamətdə işlərin görüləcəyi şübhə doğurmur. Lakin görülən işlərlə yanaşı onun təbliğatı, reklamı da mühüm əhəmiyyət kəsb edir.

**Bu barədə "Yeni Müsavat"a danışan Azərbaycan Turizm Assosiasiyasının Gəlmə turizm komitəsi nəzdində fəaliyyət göstərən Daxili Turizm komissiyasının sədri Əziz Şiriyev bildirdi ki, sözügedən rayonların turizm potensialı çox böyükdür:** "Yerli əhali və xaricdən gələn qonaqlar daha çox yaxın rayonlara getməyə üstünlük verirlər. Xaricdə ən çox Qəbələ reklam olunduğu üçün müxtəlif ölkələrdən gələn turistlər də ən çox oraya gedirlər. Yerlik vətəndaşlar isə Quba-Qusar, Şəki-Qəbələ istiqamətində turlara gedirlər. Biz 3 günlük turpaketlərimizdə yeni istiqamət olaraq Gədəbəy, Daşkəsən, Şəmkir, Gəncə, Xanlar rayonlarını təklif edirik. Bu paket hər il Novruz bayramı ərəfəsində həyata keçirilir. Təbii ki, Gədəbəydə gedəndə də Simens qardaşlarının körpüsü, Slavyanka, "Eldorado" hoteli-ni və digər gözəl yerlərlə turistləri tanış edirik. Tovuz rayonunda da çox gözəl hotellər var. "Ayan Palas" onlardan biridir. Biz bu yaxınlarda infotur da təşkil edəcəyik. Bunun məqsədi odur ki, Gəncəbasar istiqamətində olan turların miqyasını daha da genişləndirək. Turizm şirkətlərində çalışan əksər insanların heç özləri də Gədəbəydə olmayıblar. Biz bu sahədə uzun müddətdir çalışdığımız üçün həmin işçiləri də tura cəlb etmək istəyirik ki, gedib Tovuz və Gədəbəyin gözəlliklərini görsünlər. Daha sonra da onlar da bu istiqamətləri 2 gecə 3 günlük, 1 gecə 2 günlük turlara salsınlar, həmin rayonların da turizm potensialı böyüsün. Gədəbəyin çox gözəl yeraltı sərvətləri var, "Slavyanka" suyu, "Narzan" suyu ən məşhur mineral sulardır. Biz gedib Gürcüstanda "Barjom"un çıxdığı yerə baxırıq, ancaq Gədəbəydə olan "Slavyanka" və "Narzan" suyunun çıxdığı yerlərə baxmırıq".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Röya general oğlu ilə sevgili olduğunu təkzib etdi

## "İfaçı onun elçilik mərasimində belə iştirak edib və ailəlikcə dostdurlar"

**Saytlarda əməkdar artist, müğənni Röya Ayxanın general, Milli Qəhrəman Rövşən Əkbərovun oğlu ilə sevgili olduğu haqda məlumat yayılıb və onların fotoları paylaşılıb.**



Məsələ ilə bağlı "Yeni Müsavat"ın əməkdaşı müğənninin köməkçisi və mətbuat katibi ilə əlaqə saxlasa da, yayılan xəbərlərə aydınlıq gətirilməyib. Lakin sonradan ifaçının mətbuat xidməti primetime.az saytına açıqlamasında xəbəri təkzib edib. Bildirilib ki, adıçəkilən general oğlu Telmanla ifaçı arasında illərə söykənən dostluq münasibəti var: "Telman hələ 9 yaşında olarkən Röya xanım onu tanıyırdı. O, əməkdar artistin uşaqlıqdan pərəstişkarları sırasındadır. Telman müğənninin bütün komandası ilə yaxından dostdur və demək olar ki, hər gün bizim yanımızdadır".

**Əməkdar artistin də məsələyə münasibəti çox gecikməyib. O, şəxsi instaqram hesabında xəbəri paylaşıb və "Çox güldüm" şərhini əlavə edib. Mətbuat xidməti bu məsələyə də toxunub:** "Röya xanım ona görə gülür ki, Telmanla arasında 12 yaş fərq var. İfaçı onun elçilik mərasimində belə iştirak edib və onlar ailəlikcə dostdurlar. Yəni xəbər kökündən yalandır. Onların münasibətinin nə yerdə olduğunu bilən hər kəs sevgili iddiasına məhz gülümsəyir. Hörmətli media nümayəndələrinə və Röyasevərlərə səslənirik ki, əsassız xəbərlərə inanmasınlar".

Qeyd edək ki, "Qafqazinfo"nun yaydığı məlumata görə, 35 yaşlı müğənni Röya Ayxan 28 yaşlı general oğlu Telman Əkbərovun oğlu ilə sevgilidir. Məlumatda o da bildirilir ki, hətta sənətçi onunla çəkdirdiyi bir neçə şəkli instaqram səhifəsində paylaşıb və izlədiyi 60 nəfərin arasında Telman da var.

Röya eyni zamanda general-leytenant R. Əkbərovla fotosunu da instaqram izləyiciləri ilə bölüşüb.

Cütlük tez-tez məclislərə birgə qatılsa da, jurnalistlər onları bir neçə gün əvvəl premyerası keçirilən "Ağ tük" filminin qala gecəsində görüblər. Sevgililər tədbirə bir gəlsələr də, media nümayəndlərindən ehtiyat edərək dostları ilə ayrı-ayrı fotolar çəkdiriblər.

❑ **Xalidə GƏRAY, Musavat.com**

# Tovuzdakı qətl işinin yeni detalları



## Martın 11-də 40 minə yaxın şagird imtahan verəcək

**Dövlət İmtahan Mərkəzi tərəfindən martın 11-də Sumqayıt, Abşeron, Gəncə, Göygöl, Samux, Naftalan, Goranboy, Daşkəsən, Şəki, Oğuz, Qəbələ, Lənkəran, Astara, Biləsuvar, Ağsu, Zərdab, Şamaxı, Kürdəmir, Ağdam, Yevlax, Bərdə, Tərtər, İmişli, Saatlı, Sabirabad, Xaçmaz, Şabran rayonlarının ümumtəhsil müəssisələrinin məzunları üçün ümumi orta təhsil səviyyəsi üzrə (9-cu sinif) buraxılış imtahanının birinci mərhələsi keçiriləcək.**

Bu barədə DİM-in mətbuat xidmətindən məlumat verilib.

Həmin gün ümumilikdə 39496 şagirdin imtahan verməsi nəzərdə tutulub.

Bu imtahanda iştirak edəcək şagirdlər “İmtahana buraxılış vərəqəsi”ni internet vasitəsilə martın 4-dən etibarən çap edib götürə bilirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara “Yaddaş kitabçası” da təqdim olunur. Burada şagirdlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

İmtahan saat 11:00-da başlayacaq.

Şagirdlər imtahana aşağıdakı sənədləri gətirməlidir:

- imtahana buraxılış vərəqəsini;
- şəxsiyyəti təsdiq edən sənədin əslini:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan şagirdlər də daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan şagirdlər digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa şagirdin 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

IX sinif şagirdlərinin buraxılış imtahanlarının birinci mərhələsinin keçirilməsi üçün qeyd olunan şəhər və rayonlarda ümumilikdə 87 imtahan mərkəzi ayrılıb.

İmtahanda 39496 (Sumqayıt şəhərində 4416, Abşeron rayonunda 3842, Gəncə şəhərində 3365, Daşkəsən rayonunda 280, Göygöl rayonunda 877, Samux rayonunda 676, Şamaxı rayonunda 944, Naftalan şəhərində 88, Goranboy rayonunda 1320, Yevlax şəhərində 1397, Şəki şəhərində 2045, Qəbələ rayonunda 1343, Oğuz rayonunda 561, Bərdə rayonunda 2200, Ağdam rayonunda 929, Tərtər rayonunda 886, Kürdəmir rayonunda 1203, Zərdab rayonunda 611, Ağsu rayonunda 681, İmişli rayonunda 1252, Sabirabad rayonunda 1799, Biləsuvar rayonunda 1387, Saatlı rayonunda 1019, Lənkəran şəhərində 2282, Astara rayonunda 1283, Xaçmaz rayonunda 2112, Şabran rayonunda 698) nəfər 9-cu sinif şagirdinin iştirakı nəzərdə tutulur.

İmtahanların idarə olunmasına ümumilikdə 277 imtahan rəhbəri, 3355 nəzarətçi müəllim ayrılıb.

Hazırda qeyd olunan şəhər və rayonlarda imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilir, imtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılır. Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə martın 10-da təkrar baxış keçiriləcək və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə veriləcək.

## Havanın temperaturu 5-7 dərəcə aşağı düşəcək

**Azərbaycanda hava şəraitinin dəyişəcəyi ilə bağlı xəbərdarlıq edilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən “Report”a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında martın 9-u günün ikinci yarısından martın 10-u səhərədək hava şəraitinin qeyri-sabit keçəcəyi, güclü şimal-qərb küləyinin əsəcəyi, arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı gözlənilir. Havanın temperaturu ötən günlərlə müqayisədə 5-7 dərəcə aşağı enəcək.**

Azərbaycanın rayonlarında martın 9-u gündüzdən martın 10-u gündüzədək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq ərazilərdə qar yağacağı, bəzi yerlərdə intensiv olacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 5-8 dərəcə aşağı enəcək. Çaylarda sululuğun artacağı ehtimal olunur.

## Şübhəliləri marketdən alınan “skoç” ələ verib

**Fevral ayının 24-də Tovuzda baş vermiş qətllə bağlı musavat.com-a yeni məlumatlar daxil olub. Rayonun Mərdan Musayev küçəsində yerləşən evdə meyitləri tapılan ər-arvad Fərman Məmmədovun və Pakizə Mirzəyevanın qətli ətrafında müəmmaların davam etdiyi vaxtda saytımıza rayondakı mənbələrdən olduqca maraqlı və şokedici xəbərlər verilməkdədir.**

Xatırladaq ki, martın 6-da yaydığımız xəbərdə bildirilir ki, ər-arvadın qətlində şübhəli bilinən xeyli şəxs dindirməyə çağırılıb. Şübhəlilər arasında Ruhiyyə adlı gənc qadının olduğu deyilirdi. Başqa şübhəli şəxs qismində istintaqa cəlb edilən şəxs “Krokodil” ləqəbli xalça alverçisidir. Musavat.com dəqiqləşdirib ki, “Krokodil”in əsl adı Mahirdi və o, Tovuzun Xatınlı kənd sakinidir. Saxlanılanlar arasında mərhum Fərman Məmmədovun oğlu Fərid Məmmədovun dostlarının olduğu haqda da bilgilər var. Bir başqa şübhəlinin Şəmkir sakini olduğu barədə də məlumat yazmışdıq.

Musavat.com-a daxil olan yeni məlumatlara görə, bu qətl işi ilə bağlı şübhəli şəxslərin izinə marketdən aldıqları “skoç” vasitəsilə düşülüb. Xatırladaq ki, qətlə yetirilən Fərman Məmmədovla Pakizə Mirzəyevanın meyitləri aşkar edilərkən onların hər ikisinin əlləri “skoç”la bağlı olub. Görünür, istintaq cinayəti bu detaldan araşdırmaq qərarına gəlib. Nəticədə məlum olub ki, cinayətdə iştirakda şübhəli bilinən şəxslərdən biri və ya bir neçəsi “Xatınlı döngəsi” adlanan ərazidəki marketdən “skoç” alarkən təhlükəsizlik kameralarına düşüb. İstintaq bu detalı araşdırarkən başqa şübhəlilər haqda məlumat toplaya bilib.



Musavat.com-a daxil olan başqa bir məlumatda deyilir ki, şübhəli şəxs kimi saxlanılan Ruhiyyə Fərman Məmmədovun bu yaxınlarda Rusiyanın Soçi şəhərində daşınmaz əmlak satdığını, həmin satışdan əldə edilən pulun evdə saxlandığını haradansa öyrənib. Mənbə bildirir ki, qadın bu informasiyanı cinayətdə şübhəli bilinən digər şəxslərə bildirib. Səhərə yaxın ev sahiblərinin qapını Ruhiyyəyə açmalarının səbəbi isə o olub ki, qadın Fərman Məmmədovun yaxın qohumudur. Onun evin qapısını döyməsi Fərman Məmmədovda heç bir şübhə yaratmayıb. Qapı açıldıqdan sonra isə məlum hadisə baş verib... Ruhiyyənin Tovuzda tanınmış həkimlərdən birinin nəvəsi olduğu deyilir.

Daha bir maraqlı detal ondan ibarətdir ki, qətl törədilən gün mərhumların oğlu Fərid Məmmədov rayon mərkəzində yaşayan qardaşıgildə gecələyib. Belə güman olunur ki, qatillərin bu detaldan da xəbəri olub.

Cinayətdə istifadə olunan avtomobilin dövlət nömrə nişanı saxta olub. Bu haqda musavat.com günlər öncə məlumat vermişdi. Ötən yazımızda bildirmişdik ki, hadisədən sonra istintaqçılar qətlin baş verdiyi evin baxçasında torpağa basdırılmış dəmir seyf aşkar etmişdilər. Görünür, cinayətkarlar istədiklərinə nail ola bilmədikləri üçün ərlə-arvadı qətlə yetiriblər.

Xatırladaq ki, qətlə yetirilən Pakizə Mirzəyeva AFFA-nın sabiq prezidenti Ramiz Mirzəyevin bacısıdır. P.Mirzəyeva Tovuz şəhər poliklinikasının həkimi olub.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

## “Avropaya miqrant kanalı təşkil etmək istəyən 10-a yaxın dəstə aşkar olunub” - DMX

**2015-ci ildən qeyri-ieqal yollarla Avropaya miqrant kanalı təşkil etmək istəyən 10-a yaxın dəstə aşkar olunaraq, qarşısı alınıb. APA-nın xəbərinə görə, bunu Bakıda səfərdə olan Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) baş direktorunun müavini Laura Tomsonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə Dövlət Miqrasiya Xidmətinin rəisi Firudin Nəbiyev deyib.**

Qanunsuz miqrasiyaya qarşı mübarizədən söhbət açan F. Nəbiyev bildirib ki, son dövrlər bununla bağlı daha ciddi işlər aparılır və bu istiqamətdə aidiyyəti hüquq-mühafizə və prokurorluq orqanları ilə birgə qanunsuz miqrasiya kanallarının qarşısının alınması üçün tədbirlər görülür.

## Sumqayıtda silsilə oğurluqlar edən iki nəfər tutuldu

**Sumqayıtda silsilə oğurluq edən keçmiş məhkumlar saxlanılıb. DİN-dən Trend-ə verilən məlumata görə, H.Z.Tağıyev qəsəbə sakinləri, əvvəllər məhkum olunmuş Bəhlul Cəbiyev və Elxan Quliyev Sumqayıt ŞPİ 2-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində tutulub.**

Onlar ötən ilin dekabr ayından cari ilin fevral ayınadək olan müddətdə şəhər ərazisində ümumilikdə 7 həyətyanı sahədən, 3 avtomobildən pul, ev quşu və məişət əşyaları, qaz sayğacı, təmir-tikinti alətləri, maqnitofon və akkumulyator oğurlamaqda şübhəli bilinir.

## «Bakcell» şirkətinin baş direktoru Barselonada panel müzakirələrinə qatılıb




**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti, mobil sənayesinin paytaxtı olan Barselona şəhərində keçirilmiş Dünya Mobil Konqresində iştirak edib. GSMA tərəfindən təşkil olunan Dünya Mobil Konqresi (Mobile World Congress) mobil telekommunikasiya sahəsinin ən nüfuzlu və ən böyük tədbirlərdən biri sayılır.**

**«Bakcell» şirkətinin baş icraçı direktoru Nikolai Beckers Dünya Mobil Konqresinin İdman və Əyləncə sammiti çərçivəsində “Müştəri Təcrübəsinin Təkmilləşdirilməsi” mövzusunda keçirilmiş panel müzakirələrinə qatılıb.**

**«Bakcell» öz şəbəkəsinə və müştəri təcrübəsinin daha da inkişaf etdirilməsinə sərmayə yatırmağa davam edir. Biz inanırıq ki, innovativ texnologiyalar müasir və etibarlı şəbəkə ilə birlikdə bizim müştərilərimizə yüksək keyfiyyətli müştəri təcrübəsi təmin etmənin təməlidir”, deyə Nikolai Beckers bildirib.**

**Panel müzakirələrində cənab Beckers ilə birgə “Active Ticketing” şirkətinin baş direktoru Li But, “O2" şirkətinin baş marketinq direktoru Nina Bibbi, ”Globe" şirkətinin kontent biznesi üzrə vitse-prezidenti Jil Qo və “Barcelona” futbol klubunun əmlak məsələləri üzrə direktoru Uilyam Mannarelli də iştirak edib. Panel müzakirəsi zamanı sənaye liderləri mobil texnologiyanın müştəri xidmətinin keyfiyyətinə, özünəxidmət imkanlarının genişləndirilməsinə, infrastrukturun effektifliyinin artırılmasına və məzmuna çıxış imkanlarının təmin edilməsinə müsbət təsirindən söz açıblar.**

**Ənənəvi olaraq hər il keçirilən Dünya Mobil Konqresi (Mobile World Congress) telekommunikasiya sənayesi üzrə yeni əlaqələrin qurulması, yeni biznes və sövdələşmə imkanlarının yaradılması üçün dünyanın ən yüksək səviyyəli tədbiridir. Konqres çərçivəsində dünya səviyyəli konfranslar və peşəkar panel müzakirələri keçirilir, 2200-dən artıq şirkət tərəfindən mobil kommunikasiya bazarının gələcəyini təşkil edəcək ən son məhsul və texnologiyalar nümayiş olunur.**

**«Bakcell» şirkətinin nümayəndələri hər il olduğu kimi, bu il də 2018-ci ilin fevral ayının 28-dən mart ayının 1-ə qədər davam etmiş Dünya Mobil Konqresində fəal iştirak ediblər. Səfər zamanı şirkətin yüksək vəzifəli şəxsləri və aparıcı menecerləri ən son texnoloji yeniliklər və sənayenin ən müasir tendensiyaları ilə tanış olub, bir sıra maraqlı panel və müzakirələrdə iştirak ediblər.**

**İnnovasiyalar sahəsində lider olan «Bakcell» şirkəti Azərbaycan istehlakçılarının dünyanın ən son tendensiyaları və yerli bazarın tələblərinə uyğun olan ən son məhsul və xidmətlərdən yararlanması üçün əlindən gələni edir. Qlobal telekommunikasiya tendensiyaları ilə ayaqlaşmaq məqsədilə, «Bakcell» müntəzəm qaydada ən nüfuzlu telekommunikasiya tədbirləri və sərgilərdə iştirak edərək müştərilərə ən yüksək səviyyədə xidmət göstərməyinə kömək edə biləcək ən yaxşı ideyalar ilə qayıdıb onları tətbiq etməyə çalışır.**

**Tədbirdən həvəskar çəkilişi buradan izləmək mümkündür: https://goo.gl/UMqiuN ttps://goo.gl/UMqiuN**

**Narkoloji Mərkəzdə 25 nəfərin ölümü ilə nəticələnən yanğın hadisəsi ictimaiyyətin müzakirəsindədir. Hadisənin başvermə səbəbləri ilə sosial şəbəkələrdə müxtəlif versiyalar səsləndirilirdi.**



# "Narkoloji Mərkəzdəki yanğına görə digər şəxslər də məsuliyyətə cəlb oluna bilər"

## Hadisə zamanı ölənlərin ailəsinə verilən yardımın məbləği açıqlanıb

Nəhayət, martın 6-da elan edildi ki, yanğını "alkoqol qəbulu nəticəsində psixi və davranış pozuntuları" diaqnozu ilə müalicə alan Bakı şəhər sakini Məhəmməd Məmmədov törədib. Yayılan rəsmi məlumatda qeyd olundu ki, ilkin dindirmə zamanı cinayəti törətdiyini etiraf edən Məhəmməd Məmmədov ailə üzvlərinin ona qərəzli münasibətinə etiraz əlaməti olaraq və Narkoloji Mərkəzdə müalicə almaq istəmədiyinə görə intihar etmək qərarına gəldiyini bildirib. Bu məqsədlə mart ayının 2-si saat 06 radələrində qaldığı palatada yorğana bürünərək onu alışqanla yandırdığını, alov gücləndikdə özünü öldürmək niyyətindən daşınıb yanan yorğanı çarpayısının üstünə atdığını, alovun digər palatalara keçməsindən qorxduğu üçün şöbənin qapısı açılan kimi mərkəzi tərk etdiyini göstərib.

Martın 7-də baş nazirin müavini, yanğınla əlaqədar yaradılan Dövlət Komissiyasının sədri Abid Şərifov azvision.az saytına açıqlamasında bildirib ki, həlak olan hər bir şəxsin ailəsinə 10 min manat məbləğində yardım edilib.

Baş nazirin müavini vurğulayıb ki, xəsarət alanlara isə orta hesabla 500 manat maddi yardım göstərilib. A.Şərifov qeyd edib ki, aldığı xəsarətin dərəcəsindən asılı olaraq bəzilərinə 1000 manat vəsait verilib.

**"Yeni Müsavat"a danışan keçmiş polis rəisi Mahmud Hacıyev deyib ki, əslində dispanserlərdə şərait islah koloniyalarından fərqli olur:** "Burada istintaq altında yatanlar, narkotik istifadəçiləri, məhkumluq həyatı yaşayanlar da müalicə ala bilərlər. Ancaq məsələyə bu cür yanaşmaq lazımdır ki, orada müalicə alanların hamısı insandır. Bu səbəbdən də dispanser yüksək səviyyədə mühafizə, izolyasiya olunmalıdır. Xarici ölkələrdə təcrübə belədir ki, bu cür yerlərə böyük önəm verilir. Təmirindən tutmuş digər məsələlərinə qədər dispanserlər xüsusi olaraq tikilir, istifadə olunur. Bura izolyasiya olunmuş müalicə müəssisəsi olduğu üçün müəyyən predmetlər içəri buraxılmalı deyil. Bu hadisədə gördük ki, kiçik bir məsələ necə ağır nəticələrə gətirib çıxara bilir. Çox adam məsələyə fərqli yanaşır ki, narkoman idilər, ölüb canlarını qurtardılar. Bu cür yanaşma qəti şəkildə doğru deyil. Sivil ölkələrdə artıq bu cür insanları cinayətdən azad edirlər. Bizdə də bu məsələ müzakirədədir. Ancaq bir məqam da var ki, baxır kimi azad edirsən. Azad etmək adı altında neqativ hallar da baş verə bilər. Narkoloji Mərkəzdə yerləşənlərə cinayətkar demək olmaz. Sadəcə olaraq, onlar xəstədirlər və müalicə alırlar. İstər narkotiki gəzdirəni, istərsə də qəbul edəni Avropa ölkələrində xəstə hesab edirlər və həbsə salmırlar. Bu adamlarda "lomka" deyilən hal var ki, bu hala düşdükləri zaman nə etdiklərini bilmirlər. Ağılları, şüurları itir. Bütün narkomanlar xaricdə olduğu kimi yüksək səviyyədə, məcburi qaydada, məhkəmənin qərarı ilə müalicə olunmalıdırlar. Bu adamları tutub içəri salmaqla heç bir iş düzəlmir. Əksinə, narkotik qəbul edən şəxsi tuturlar, türmədən çıxdıqdan sonra vəziyyəti daha da pis olur. Başlayır yenə də oğurluq etməyə, narkotik istifadəsinə".

**M. Hacıyev bildirib ki, cəmiyyətin də bu insanlara baxışı dəyişməlidir:**

"İnsanlar var ki, birmənalı şəkildə deyir ki, bu adamları azad etmək olmaz. Hesab edirlər ki, onların həbsdə qalması, hətta bəzilərinə görə ölümü daha yaxşıdır. Nəzərə almaq lazımdır ki, onlar da Azərbaycan vətəndaşıdırlar. Cinayətkarı ona görə tutular ki, gələcəkdə baş verə biləcək digər cinayət əməllərinin qarşısı alınsın. Onu islah əmək koloniyasında tərbiyə edib buraxırlar. Narkomanı isə tutanda hansısa cinayət əməlinin qarşısı alınmır. Məsələyə bu cür yanaşmaq lazımdır. Əgər mərkəz yüksək səviyyədə mühafizə olunsaydı, yəqin ki, bu cür hadisə baş verməzdi. İstintaq başlayıb və işlər aparılır. Məhəmməd Məmmədov istintaqa cəlb edilsə də, proses davam edir. Digər şəxslər də məsuliyyətə cəlb oluna bilər. Cinayət qanunverciliyində təhrikçi, köməkçi, iştirakçı, icraçı, o şəraiti yaradan vəzifə sahibi var. Qanunvericilikdə hadisəni törədənin həbsi ilə məsələnin qapanması halı yoxdur. Araşdırılacaq ki, o şəxs nə üçün belə bir hadisə törədib və alışqan onda haradan olub. Eyni zamanda motiv də araşdırılmalıdır. Həkim personalının həmin ərəfədə harada olması da araşdırılacaq. Bundan əlavə, mərkəzdə müalicə alan şəxslərin yaxınlarından da ifadələr alınacaq. Müalicənin necə təşkil olunması, neqativ halların nələr olması, hamısı öyrəniləcək. İstintaq başlayıbsa, gedişat da bu cür olacaq. Hələ ki yananların bəzilərinin şəxsiyyəti müəyyənləşməyib. Bu da onu göstərir ki, istintaq hələ davam edəcək".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# Sürücülər YDM-lərdə ikiqat aldadılır-həm keyfiyyətdə, həm də ölçüdə



## Standartlaşma və Patent Agentliyinə qarşı da ittihamlar var...

**Azərbaycanda əksər yanacaqdoldurma məntəqələrində yanacağını keyfiyyətinin aşağı olması sürücüləri narahat edən əsas problemlərdən biridir. Məhz keyfiyyətin aşağı olmasının səbəbindən Azərbaycanda avtomobillər 5-10 min kilometr getməmiş mühərrikin gücü azalır, benzin sərfiyyatı isə normadan çox artır. Avtomobil mütəxəssisləri məsləhət görür ki, bu kimi durumlarla üzləşməmək üçün daim eyni və güvəndiyiniz məntəqədən benzin almaq lazımdır.**

Müxbirimizin bu günlərdə yanacağın keyfiyyəti ilə bağlı paytaxt sürücüləri arasında keçirdiyi sorğudan da bəlli olub ki, onlar bu məsələdən çox narazıdırlar.

Ölkədə Avro-4 standartına keçiddən sonra keyfiyyətin yaxşılaşacağı gözlənilsə də, bütün YDM-lərdə vəziyyət eyni deyil.

Bəs görəsən, müvafiq dövlət qurumları tərəfindən ayrı-ayrı şirkətlərə məxsus yanacaqdoldurma məntəqələrində benzinin keyfiyyəti, oğurluq halları yoxlanılırmı? YDM-lərdə yanacağın az vurulması ilə bağlı Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə də ittihamlar var. İddia edilir ki, bu qurum YDM-lərlə anlaşma şəraitində sürücülərin aldadılmasına göz yumur...

**Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Fazil Talıblı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hazırda hər hansı yoxlama-monitorinq tədbirləri həyata keçirilmir:** "Bildiyiniz kimi, ölkə ərazisində sahibkarlıq obyektlərində aparılan yoxlamalar dayandırılıb. Amma buna baxmayaraq, təbii ki, bu sahədə vəziyyət araşdırılır, müəyyən təhlillər aparılır. Sertifikat orqanları məhsulları sertifikatlaşdırarkən, həmçinin digər maraqlı təşkilatlar məhsulların keyfiyyətinə özləri nəzarət etmək məqsədilə bizim laboratoriyalara müraciət edir, məhsullarını təqdim edirlər. Daha sonra bu məhsulların keyfiyyəti araşdırılır. Bu baxımdan Azərbaycanda istehsal edilən məhsulların keyfiyyətində heç bir problem yoxdur, keyfiyyətə uyğundur. Biz laboratoriya nəticələrinə istinad edərək bunu deyirik. Şikayətlər varsa, mən narazı qalan sürücülərimizdən xahiş edirəm ki, bizə müraciət etsinlər, hansı yanacaqdoldurma məntəqələrindən narazıdırlarsa, nümunələr təqdim etsinlər. Biz həmin nümunələri laboratoriyalarda yoxlayaq. Bu halda konkret fakt üzrə danışmaq imkanımız olacaq. Amma ümumilikdə Azərbaycanda 2021-ci ilə qədər yoxlamalar dayandırılıb".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da bu sahədə ciddi problemlərin olduğunu dilə gətirdi:** "Hər həftə bizə yanacağın keyfiyyəti ilə bağlı bir-iki telefon zəngi daxil olur. Hətta ən prestijli, brend yanacaqdoldurma məntəqələrindən də şikayət daxil olur. Şikayətlərdə ən çox səslənən odur ki, yanacaq keyfiyyətsizdir. Bəzən elə olur ki, yanacağı boşaltdıqdan və avtomobilə başqa yanacaq tökdükdən sonra işləməyə başlayıb. İkinci problem odur ki, yanacaq az vurulur və litrdə əksik olur. Sürücülər bildirir ki, yanacaq çənlərindən avtomobilə 3 metr uzunluğunda şlanqlarda olan yanacağın hamısı avtomobilin çəninə doldurulmur. Halbuki sayğacdan keçir və ona görə sürücüdən ödəniş alınır. Üçüncüsü, sürücülərin sayğaca nəzarət etməsinə imkan verilmir. Daim deyirlər ki, avtomobili litri göstərən cihazdan qabağa sür. Məqsəd odur ki, sürücü sayğacı görməsin. Sürücülər onu da iddia edirlər ki, yanacaqdoldurma məntəqəsinin işçiləri cəld bir şəkildə müəyyən düymələrə basır və daha az yanacağın avtomobilin çəninə yığılmasına çalışırlar. Bəzi yanacaqdoldurma məntəqələri haqqında belə iddialar da yayılır ki, hər axşam işçilər rəhbərliyə əlavə pul da verirlər. Bu isə sürücülərin cibindən oğurlanan pullardır".

**Ekspertin sözlərinə görə, digər bir məsələ odur ki, çox zaman yanacaq əvəzinə hava vururlar:** "Yay aylarında bu hallar daha geniş yayılır. Tələblərdən biri də odur ki, yanacaqdoldurma məntəqələrində ölçü qabları olmalıdır. İstənilən istehlakçı pul verib o qabları ala, avtomatın düzgün işləyib-işləməməsini yoxlaya bilər. Lakin bu ölçü qabları ya yanacaqdoldurma məntəqələrinin əksəriyyətində yoxdur, ya da onu gözdənuzaq bir yerə qoyurlar.

Yanacaqdoldurma məntəqəsində işləmiş bir nəfərin dediyinə görə, yanacaq vurulan avtomatların içində "çörək boltu" deyilən bir bolt var, onu sağa-sola hərəkət etdirəndə istehlakçını aldatmaq mümkündür. Buna dövlət orqanları nəzarət etməlidir. Həmin boltun nə qədər fırladılması özü də yanacağın ölçüsünə təsir edir.

Digər bir problem isə çənlərin dibində qalan suyun avtomobillərin benzin çəninə vurulmasıdır. Bu da avtomobillərin sıradan çıxmasına gətirib çıxarır".

**E.Hüseynov onu da vurğuladı ki, sahibkarlıq obyektlərində yoxlamaların dayandırılması müsbət hal olsa da, bundan sui-istifadə olunur və istehlakçıların hüquqları pozulur:** "Biz yoxlamaların qadağan olunmasının tərəfdarıyıq. Əslində bu yaxşı bir cəhətdir. Cənab prezident bu qərarı verəndə düşünürdük ki, istehlakçılar sahibkarların verdiyi rüşvətlərin də üzərinə gəldiyi bahalı qiymətlərdən xilas olacaqlar. Ancaq indi ortaya çıxan mənzərə odur ki, yoxlamaların dayandırılmasından sui-istifadə edirlər. Yanacaqdoldurma məntəqələrində də ictimai nəzarət funksiyası yoxdur".

**Belə iddialar da var ki, bir sıra YDM-lərdə benzinə qat-qat ucuz olan mayelər qatılır ki, bu da keyfiyyəti azaldır.**

**❑ Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 54 (6943) 8 mart 2018

# Həftənin neçə günü ət yemək olar?

Həftədə beş porsiyadan artıq emal edilmiş ət yeyən xüsusi genə malik insanlarda kolorektal xərçəng riski iki dəfə artıq olur. Kolorektal xərçəng dünya boyu ən çox yayılmış və ən çox ölümə səbəb olan xərçəng növüdür. Birləşmiş Ştatlar, Kanada, Avstraliya və Avropada 1800 insan üzərində 10 araşdırma aparılıb ki, bu da ət yeyən insanlarda nitratların artıq olduğunu göstərib. Qurudulmuş, hisə verilmiş, bişmiş və ya qablaşdırılmış ət məmulatlarının müalicəsi var. Amma alimlər bekon, vetçina, kolbasa, sosiska və paştet kimi məmulatları araşdırıblar.



Alimlər kolorektal xərçəngə tutulmuş 9 min insanın qanı ilə xəstə olmayan 9 min insanın qanlarındakı eyni genomu müqayisə edib. Kolorektal xərçəng 30 gen növünün birləşməsi ilə yaranan mürəkkəb bir xəstəlikdir. Tədqiqatların nəticələri bu genlərin iki variantına malik olan və hər gün emal edilmiş ət yeyən insanlarda kolorektal xərçəng riskinin yüksək olduğunu göstərib.



# Muzeydə ananası sənət əsəri elan etdilər

Şotlandiyanın Aberdin şəhərində müasir incəsənət sərgisinin təşkilatçıları ziyarətçilərdən biri tərəfindən ora qoyulan ananası eksponat kimi şüşə arxasına qoyaraq nümayiş etdiriblər. "Daily Mail" qəzetinin yazdığına görə, 22 yaşlı tələbə Ruari Qrey qalereyadakı digər adamlarla bu cür zarafat etmək istəyib və qalereyadakı boş stolun üstünə ananas qoyub. Tələbə bir neçə gün sonra eyni qalereyaya gələndə həmin ananası şüşənin içində görüb: "Mən qərar verdim ki, o ananasın həmin stolda nə qədər uzun müddət qalacağına baxım. Maraqlı idi ki, insanlar onun incəsənət olduğuna inanacaqdılarmı?"

Qreyin dostlarından biri olan Lloyd Cek ananasın şəklini twitterdə dərc edərək aşağıdakıları yazıb: "Beləliklə, ötən həftə biz ananası displeyin yanında qoyub getdik. Bu gün isə gördük ki, onu şüşə vitrinə yerləşdiriblər. Olduqca təəccüblüdür".

Ötən ilin may ayında isə məlum olmuşdu ki, Amerikada iki nəfər gənc müasir incəsənət sərgisində yerə eynək qoyub gediblər. Gələn ziyarətçilər isə onu müasir incəsənət nümunəsi olaraq qəbul ediblər.

# İspan qadınlar evdə və işdə aksiya edirlər




İspaniyada qadınlar dünya qadınlar günündə iş yerləri ilə yanaşı evlərində də etiraz aksiyası keçirəcək. Feminist qruplar tərəfindən qurulan 8 Mart komissiyasının verdiyi açıqlamada ispan qadınların 8 Mart Dünya Qadınlar Günündə küçəyə çıxaraq şiddətə, təcavüzə, məvacib bərabərsizliyinə qarşı səslərini qaldırmağa hazırlaşdığını deyiblər. Açıqlamada bildirilir ki, hər keçən gün daha çox qadın kişi şiddətinə qurban gedir. Son 14 ildə mindən artıq qadının öldürüldüyü, qadınların iş yerləri, küçələr və hətta əyləncə yerlərində cinsi istismara məruz qaldığına diqqət çəkilib.

Şikayət edəcəkləri halda saxlanılacaqları və ya deportasiya ediləcəklərindən qorxan miqrant qadınların cinsi istismara qarşı çox daha müdafiəsiz olmaları da vurğulanıb. İş yerlərində məvacib bərabərliyinin yüzdə 23-ə çatdığına işarə edilən açıqlamada rəhbər vəzifələrində də əsasən kişilər təmsil edilir.

Çalışan qadınlara 8 martda "işə getməyin" çağırışı edən 8 mart Komissiyası açıqlamasında ev xanımlarına da "uşaqları məktəbə göndərməyin, paltar yumayın, ütü ilə məşğul olmayın, yemək bişirməyin, nəvələrinizin baxımını və təmizliyini öz üzərinizə götürməyin" tövsiyəsini verib.

İstifadə məsələsində də qadınlardan "su, elektrik, nəqliyyat, rabitə və qida kimi məcburi olanların xaricində heç bir şeyə pul xərcləməmələri, xüsusən də qadınların pis şərtlərdə çalışdığı yerlərdən heç nə almamaları" xahiş olunub.

Komissiya tələbələrə də "universitetə getməyin, imtahanınız varsa, aksiya keçirmək haqqınız olduğunu xatırladın, yataqxanada aksiya keçirərək qadınların vəziyyətinə diqqət çəkin" çağırışı edilib.

# Qoroskop (8 mart)




**QOÇ** - Şəxsi həyatınızda müsbət dönüş gözlənilir. Amma gərək qarşıya qoyduğunuz planları axşama qədər reallaşdırasınız. Əks təqdirdə, sonrakı müddətdə buna imkanınız olmayacaq. Hər kəslə anlaşmağa çalışın.

**BUĞA** - Müəyyən mənada gərgin gündür. Proseslərin inkişafı iradənizin ziddinə gedə bilər. Odur ki, özünüzü ələ almalı, dar macalda güvəndiyiniz adamların məsləhətini eşitməlisiniz. Axşama sürprizlər olmalıdır.

**ƏKİZLƏR** - Sağlıq durumunuzun qayğısına qala bilsəniz, heç bir xoşagəlməzliklə rastlaşmayacaqsınız. Əksinə, bu gün nahardan sonra bir-birinin ardınca yaxşı xəbərlər eşidəcəksiniz. Səfərə çıxmayın.

**XƏRÇƏNG** - Əgər dinə zidd addımlardan uzaq ola bilsəniz, heç bir xoşagəlməzliklə rastlaşmayacaqsınız. Heç kimə yalan vəd verməyin. Ötən iki ayda həll edə bilmədiyiniz problemlər bu gündən çözülməyə başlayacaq.

**ŞİR** - Daha çox sevgi istiqamətində uğurlarınız mümkündür. Fəaliyyət və pul məsələlərində isə hələlik gözləmə mövqeyi seçin. Heç kimə əmin olmadığınız cavabı verməyin. Ümumiyyətlə, bu gün riskdən qaçın.

**QIZ** - Əmin olmadığınız şeylər barədə verdiyiniz vədlərə görə indi başınız ağrıyır. Bu səbəbdən də inciklik̇lər artmaqdadır. Heç olmasa, bu gündən başlayaraq, maksimum tədbirli olun, tələsik qərar çıxarmayın.

**TƏRƏZİ** - Ətrafınızda olan bədxah adamların sayı xeyli artıb. Elə güman etməyin ki, onların öhdəsindən gəlmək mümkün deyil. Sadəcə, ədalət prinsiplərinə söykənməklə onlara qalib gəlmək olar.

**ƏQRƏB** - İxtiyarınızda olan bu bayram günü kifayət qədər uğurlu olacaq. İstər yeni sövdələşmələrdə, istərsə də şəxsi büdcənizi tənzimləməkdə Göy qübbəsi sizə yardımçı olacaq. Qalır ədalətli olmaq.

**OXATAN** - Ulduzlar şəxsi büdcənizi artırmaq üçün sizə yardımçı olacaq. Bu baxımdan bütün alacaqlarınızı əldə etmək üçün boş durmamalısınız. Xüsusən də saat 14-17 aralığında aktivliyinizi daha da artırmalısınız.

**OĞLAQ** - Maraqlı ərəfə yaşayacaqsınız. Hətta hədsiz sevincinizə səbəb olan bir neçə xəbər də eşidə bilərsiniz. Bununla yanaşı, varlanmaq ehtimalınız da var. Nüfuzlu insanlarla mümkün qədər sıx-sıx görüşün.

**SUTÖKƏN** - Yeni əlaqələr yaratmaq istəyirsinizsə, bu tarixdən maksimum istifadə edin. İşlətdiyiniz hər bir kəlmənin məsuliyyətini hiss edin. Uzaqda yaşayan doğmalarınızla əlaqə yaradın. Qidanıza fikir verin.

**BALIQLAR** - İnsanlarla əlaqələrinizi genişləndirməyə çalışın. Çünki ulduzlar qarşılıqlı münasibətlərin yüksək səviyyədə olacağından, başa düşüləcəyinizdən xəbər verir. Bu axşam qonaqlıq təşkil etmək səmərəlidir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Siçan dollar oğurluğuna görə yaxalandı

Amerikanlar ev siçanlarını dollar oğurlayarkən yaxaladılar. Bunun videosu da mediada artıq yayılıb. Videoda görünür ki, ev siçanı divandakı 20 dollarlıqları öz yuvasına daşımağa çalışır. Onunla videonu çəkən şəxs mübarizə aparır. O, siçandan "xahiş edir" ki, pulu özünə qaytarsın, çünki bu pul mənzilin aylıq kirayəsini ödəmək üçün ona lazımdır. Bununla belə, siçan pulu oğurlamaq fürsətini əldən qaçırmır və hərdən iki kupyuranı birdən oğurlayır. Nəhayət, kişiyə siçanla dalaşmaq çətin gəlir. Rolik siçanın pulu oğurlamaq üçün növbəti cəhdi ilə yekunlaşır.



Fevralın əvvəlində xəbər yayılmışdı ki, pişik qonşulardan oğurladığı qadın alt paltarlarına görə iki sevgili arasında dava salıb. Heyvan sahibi özünün sadiqliyini sevgilisinə sübut edib və nəticədə pişiyin oğurluğu üzə çıxıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100